**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

20 dekabr 2025-ci il №48 (9154) www.muallim.edu.az muallim@media.edu.az

# PREZİDENT AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİNİN ƏMƏKDAŞLARINI TƏLTİF EDİB

## Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalayıb

Azərbaycan Memarlıq və İnşaat Universitetinin əməkdaşları təltif ediliblər. Prezident İlham Əliyev bu barədə Sərəncam imzalayıb.

Sərəncama görə, Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Memarlıq və İnşaat Universitetinin aşağıdakı əməkdaşları təltif ediliblər.

Bax səh. 2



## AzMİU-nun 50 illik yubileyi qeyd olunub



**AzMİU**

**ölkənin mühəndislik və memarlıq potensialının formalaşmasında aparıcı ali təhsil ocaqlarından biri kimi mühüm rol oynayıb**

Bax səh. 2

## Müəllimlərimizin keyfiyyəti əsaslı şəkildə artıb



Mən inanıram ki, bizim son 10 ildə müəllimlərimizin keyfiyyəti əsaslı şəkildə artıb. Bu həm diaqnostika, həm sertifikatlaşdırma prosesində, həm də ən vacibi işə qəbul olan müəllimlərimizin keyfiyyətində görünür. Yəni bizim yüzlərlə dil və ədəbiyyat, riyaziyyat, tarix, biologiya müəllimimiz var ki, onlar qəbul imtahanlarında 500-dən çox bal toplayıblar... Yeni nəsil müəllimlərimizin səviyyəsi sertifikatlaşdırma nəticələrində də görünür. Son 5 ildə işə qəbul olunan müəllimlərin sertifikatlaşdırma imtahanındakı orta nəticəsi 25 il və daha çox pedaqoji stajı olan müəllimlərin orta nəticəsindən yüksək olub.

## Elm və ali təhsil sahəsində ciddi irəliləyişə nail olmuşuq



Son illər Azərbaycanda elm və ali təhsil sahəsində ciddi irəliləyişə nail olmuşuq. Son illər elm və ali təhsilin birgə inkişafı bütün göstəricilərin, keyfiyyətin və məzmunun yaxşılaşmasına zəmin yaradıb. Bir çox ölkələrdə doktorantura təhsilinin neçə ilə bitməsi önəmli deyil. Bu kontekstdə, təbii ki, biz də keyfiyyəti önə çəkməliyik. Təəssüf ki, bizim üçün illər önəmlidir. Biri zaman məsələsidir, digəri isə münasibət. Son illər elmə münasibətdə fərqliliklədən, individualizmdən birgə yanaşmaya, əməkdaşlığa doğru irəliləmək əsas məqsəddir.

## Distant təhsil məsələsi gündəmə gələcək



Distant təhsil məsələsi gündəmə gələcək. Çünki biz ona səmərəlilik – planlaşdırma xərcləri və prosesin rahatlığı baxımından baxırıq. Eyni zamanda, uşaqların, müəllimin öz kəndindən, yaşadığı məntəqədən uzaqlaşmadan distant təhsilinin mümkün olub-olmaması məsələsinə nəzər yetiririk. Bu model mümkündür və icra olunacaq. Bu model gündəmdədir və düşünürəm ki, növbəti tədris ilindən belə bir pilot model tətbiq olunacaq. Yəni uşaqları daşımadan, onların öz yaşadıqları ərazidə bu modelin tətbiqi nəzərdə tutulur. Dünyanın bir çox yerlərində də bu model artıq tətbiq olunur.

Bax səh. 3

## "Bir Könüllü" 10 yaşını qeyd etdi



Bax səh. 4

## Göyçə mahalının Cil kənd orta məktəbi



Bax səh. 6

## Azərbaycan dilinin saflığı və milli kimlik məsələsi




Bax səh. 7

## Prezident İlham Əliyev Azərbaycan Memarlıq və İnşaat Universitetinin əməkdaşlarını təltif edib

Azərbaycan Memarlıq və İnşaat Universitetinin əməkdaşları təltif ediliblər. Prezident İlham Əliyev bu barədə Sərəncam imzalayıb.

Sərəncama görə, Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Memarlıq və İnşaat Universitetinin aşağıdakı əməkdaşları təltif ediliblər:

**“Şərəf” ordeni ilə**

Məmmədova Gülçöhrə Hüseyn qızı

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Ağayev Asəf Mirzə oğlu
Babayev Nəbi Miri oğlu
Əliyev Fəqan Qənbər oğlu
Hacıyev Müxlis Əhməd oğlu
Haqverdiyeva Tahirə Axi qızı
Mehtiyev Əlixan Qafar oğlu
Məmmədov Nurməmməd Yaşar oğlu
Şirinzadə İradə Nüsrət qızı

**“Tərəqqi” medalı ilə**

Abdullayeva Nərgiz Cavad qızı
Aslanov Telman İmran oğlu
Aslanova Nigar Məhər qızı
Danyalov Şəfi Danyal oğlu
Əhmədova Salatın Alı qızı
Əkbərova Samirə Misirxan qızı
Əliyev Ramiz Dadaş oğlu
Əliyeva Səlmi Saleh qızı
Fərzəliyev Sahib Abduləli oğlu
Həsənov Fərzəli Həsən oğlu
Hüseynov Hüseynağa İbrahim oğlu
Hüseynova Rəna Ömər qızı
İskəndərov Ramiz Əziz oğlu
Qasımov Akif Fazil oğlu
Quliyeva Əzizə Mürsəl qızı
Məmmədov Sabir Baladin oğlu
Musayeva Nailə Fuad qızı
Naqdiyev Əcəm Özübəy oğlu
Nəbiyev Aydın Xalıq oğlu
Sazairov Əmirxan Bəhsət oğlu
Yusifzadə Elçin Nazim oğlu.

Eyni zamanda, Azərbaycanda təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Nağıyev Nizami Həsən oğluna Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.

# AzMİU-nun 50 illik yubileyi təntənəli şəkildə qeyd olunub





Dekabrın 18-də Gülüstan Sarayında Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) yaradılmasının 50 illik yubileyi münasibətilə təntənəli yığıncaq keçirilib.

Yubiley tədbirindən öncə AzMİU-nun rəhbərliyi, professor-müəllim heyəti və əməkdaşları Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, əziz xatirəsini dərin ehtiramla anıblar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.



Universitet kollektivi daha sonra Şəhidlər xiyabanını ziyarət edib, Vətən uğrunda canını fəda edən Şəhidlərin məzarları üzərinə gül dəstələri qoyub.

Rəsmi tədbirdən öncə “Gülüstan” sarayında təşkil olunan “Təhsil və irs” sərgisinə baxış keçirilib. Sərgidə universitetin zəngin tarixi irsi, keçdiyi inkişaf mərhələləri, elmi-pedaqoji nailiyyətləri və müasir inkişaf strategiyası təqdim olunub.

Təntənəli yubiley yığıncağı Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə dövlət və hökumət nümayəndələri, millət vəkilləri, Elm və Təhsil Nazirliyinin rəhbər şəxsləri, yerli və xarici tərəfdaş ali təhsil müəssisələrinin rəhbərləri, tanınmış elm və mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri, AzMİU-nun professor-müəllim heyəti, əməkdaşları və məzunları iştirak ediblər.

Tədbirdə çıxış edən rektor, professor Gülçöhrə Məmmədova bildirib ki, AzMİU-nun 50 illik yubileyi universitetin keçdiyi şərəfli yola, formalaşdırdığı elmi məktəbə və ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə nəzər salmaq üçün bir fürsətdir. Rektor vurğulayıb ki, 50 illik yubileyin qeyd edilməsi həm də ölkəmizdə memarlıq və inşaat təhsilinin inkişafına dövlət qayğısının, milli mühəndislik məktəbinin formalaşmasına göstərilən xüsusi diqqətin bariz göstəricisidir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra ölkəmizin hərtərəfli inkişaf dinamikasının daha da sürətləndiyini vurğulayan rektor, son illərdə təhsil sahəsində həyata keçirilən islahatlara diqqət çəkib. Təhsilin qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, universitet-sənaye əməkdaşlığının genişləndirilməsi, rəqəmsal və hibrid tədris modellərinin tətbiqi, eləcə də insan kapitalının inkişafına yönəlmiş məqsədyönlü siyasətin AzMİU-nun inkişafına təsirindən danışıb.

“Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan böyük quruculuq işləri, şəhərsalmanın vüsət alması, “ağıllı şəhər”, “yaşıl memarlıq”, enerji effektli tikinti kimi çağdaş yanaşmalar memarlıq və inşaat təhsilinə yeni tələblər formalaşdırır. AzMİU bu çağırışlara cavab vermək üçün yenilənmiş təhsil proqramları, mütəxəssis hazırlığının yeni strukturu, gücləndirilmiş elmi baza, beynəlmiləlləşmə və rəqəmsal transformasiya istiqamətində ardıcıl addımlar atır”, - deyə professor Gülçöhrə Məmmədova əlavə edib.

Rektor çıxışında yubiley ərəfəsində AzMİU-nun seçdiyi devizə də diqqət çəkib: ““Əsrə bərabər 50 il” devizini seçməyimiz təsadüfi deyil. Bu yarım əsr təkcə universitetin yaşı deyil - Azərbaycanın sürətli inkişaf yoluna verilmiş töhfələrin, minlərlə memar və mühəndisin yetişdirilməsi ilə formalaşan intellektual gücün, ölkənin quruculuq və bərpa işlərində ön sıralarda dayanmağının ifadəsidir. Eyni zamanda, bu, 1920-ci ildə yaradılmış İnşaat fakültəsindən başlayaraq toplanmış bütün təhsil təcrübəsinin və nailiyyətlərin universitetin bünövrəsini təşkil etməsinin göstəricisidir”.

Professor Gülçöhrə Məmmədova 50 il ərzində universitetdən 70 mindən çox memar, inşaat, nəqliyyat, hidrotexniki və meliorativ tikinti mühəndisinin məzun olduğunu deyib: “Respublikanın, demək olar ki, bütün iri tikinti layihələrində, şəhərsalma planlaşdırılmasında, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasında AzMİU məzunlarının imzası var. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq işlərinin əsas icraçıları, layihə rəhbərləri, sahə mühəndisləri də məhz bizim məzunlardır. Bu fakt bir daha sübut edir ki, AzMİU yalnız təhsil müəssisəsi deyil, ölkənin inkişaf strategiyasının həyata keçirilməsində rolu olan milli intellekt mərkəzidir”.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında Azərbaycan Memarlıq və İnşaat Universitetinin ölkənin mühəndislik və memarlıq potensialının formalaşmasında aparıcı ali təhsil ocaqlarından biri kimi mühüm rol oynadığını vurğulayıb. Nazir qeyd edib ki, universitetin çoxillik elmi-pedaqoji ənənələri, müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığı və innovativ yanaşmaları AzMİU-nu ölkənin strateji təhsil mərkəzlərindən birinə çevirib.

Nazir bildirib ki, AzMİU-da həyata keçirilən təhsil islahatları, beynəlxalq akkreditasiyalar və xarici ali məktəblərlə qurulan əməkdaşlıqlar universitetin qlobal ali təhsil məkanında mövqeyinin möhkəmlənməsinə xidmət edir. E.Əmrullayev beynəlxalq reytinqlərdə əldə olunan nəticələrin məqsədyönlü fəaliyyətin göstəricisi olduğunu, bu nailiyyətlərin həm akademik keyfiyyətin yüksəldilməsi, həm də elmi-tədqiqatların genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Emin Əmrullayev AzMİU-da rəqəmsal transformasiya sahəsində görülən işləri yüksək qiymətləndirib, tədris prosesində müasir rəqəmsal platformaların tətbiqi, elektron resursların genişləndirilməsi və idarəetmədə innovativ həllərin universitetin dayanıqlı inkişafına mühüm töhfə verdiyini bildirib. Vurğulayıb ki, bu istiqamətdə atılan addımlar tələbələrin bilik və bacarıqlarının artırılmasına, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Nazir sonda AzMİU-nun kollektivinə fəaliyyətlərində uğurlar arzulayıb, universitetin ölkənin sosial-iqtisadi inkişafına, mühəndis və memarlıq sahələrində peşəkar kadr potensialının gücləndirilməsinə bundan sonra da əhəmiyyətli töhfələr verəcəyinə əminliyini ifadə edib.

Sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təltif olunmuş AzMİU əməkdaşlarına dövlət təltifləri elm və təhsil naziri Emin Əmrullayev tərəfindən təqdim edilib. Həmçinin universitet əməkdaşlarına Elm və Təhsil Nazirliyinin təltifləri də təqdim olunub.

Daha sonra AzMİU-nun 50 illik inkişaf yolunu, elmi-pedaqoji nailiyyətlərini və gələcək strateji hədəflərini əks etdirən təqdimat filmi nümayiş etdirilib.

Rəsmi hissənin davamında yubiley münasibətilə universiteti təbrik edən qonaqlar çıxış edərək Azərbaycan Memarlıq və İnşaat Universitetinin ötən illər ərzində qazandığı zəngin təcrübə və formalaşdırdığı güclü elmi-tədris mühiti barədə ətraflı söz açıb, universitetin milli ali təhsil sistemində tutduğu mövqeyini yüksək qiymətləndiriblər.

Tədbirin sonunda Azərbaycan Memarlıq və İnşaat Universitetinin inkişafına töhfə vermiş tərəfdaş qurumlar səmərəli əməkdaşlığa görə universitet rəhbərliyi tərəfindən təltif olunub.

AzMİU-nun 50 illik yubileyinin qeyd edilməsi universitetin tarixində yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, Azərbaycanın mühəndislik, memarlıq və dizayn təhsilinin gələcək inkişafı üçün möhkəm təməl yaradır. Bu yubiley ölkənin insan kapitalının inkişafına yönəlmiş dövlət siyasətinə verilən töhfənin və AzMİU-nun milli intellekt mərkəzi kimi rolunun bir daha təsdiqidir.

**Ruhiyyə DAŞSALAHLI**

# Elm və təhsil naziri Ağcabədidə vətəndaşları qəbul edib



Dekabrın 19-da elm və təhsil naziri Emin Əmrullayev Ağcabədi şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər, Bərdə, Ağdərə, Laçın, Kəlbəcər sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar xarici kvalifikasiyaların tanınması, iş yerinin dəyişdirilməsi, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Nazir Türkiyənin bir neçə ali təhsil müəssisəsinin rəhbəri ilə görüşüb



Elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illik yubiley tədbiri çərçivəsində ölkəmizdə səfərdə olan Türkiyənin aparıcı ali təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb.

Görüşdə İstanbul Universitetinin rektoru Osman Bülent Zülfikar, Qazi Universitetinin rektoru Uğur Ünal, Yıldız Teknik Universitetinin prorektoru Hüseyn Yılmaz və digər nümayəndələr iştirak ediblər.

Tərəflər arasında aparılan müzakirələrdə iki ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlıq imkanları, birgə layihələr, tələbə və müəllim mübadiləsi, həmçinin ali təhsil sahəsində mövcud inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Emin Əmrullayev görüş zamanı Azərbaycan və Türkiyə arasında təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıb, bu istiqamətdə yeni təşəbbüslərin reallaşdırılmasının hər iki ölkənin ali təhsil sisteminə töhfə verəcəyini bildirib.

Türkiyənin ali təhsil müəssisələrinin rəhbərləri də öz növbələrində Azərbaycanla təhsil sahəsində əməkdaşlığın mövcud səviyyəsindən məmnunluqlarını ifadə edərək qarşılıqlı səfərlərin və birgə təşəbbüslərin artırılmasının əhəmiyyətini qeyd ediblər.

# Emin Əmrullayev Böyük Britaniyanın Lordlar Palatasının üzvü Lord Alderdice ilə görüşüb



Elm və təhsil naziri Emin Əmrullayev Böyük Britaniyanın Lordlar Palatasının üzvü Lord Alderdice ilə görüşüb. Görüş zamanı elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.

# Müəllimlərimizin keyfiyyəti əsaslı şəkildə artıb

## Emin Əmrullayev Real TV-nin "Vacib sual" verilişinin qonağı olub




Elm və təhsil naziri Emin Əmrullayev Real TV-də yayımlanan "Vacib sual" verilişində qonaq olub. Veriliş zamanı nazir məktəbəqədər təhsilin əhatəliliyinin artırılması, "Tam orta məktəb" layihəsinin icrası, peşə təhsilinin inkişafı, əmək bazarının tələblərinə uyğun ixtisasların formalaşdırılması, eləcə də 2026-cı il üçün müəyyənləşdirilən hədəflər və digər aktual mövzular barədə fikirlərini bölüşüb.

### Rəqabət olan yerdə inkişaf da olur

■ Mən inanıram ki, bizim son 10 ildə müəllimlərimizin keyfiyyəti əsaslı şəkildə artıb. Bu, həm diaqnostika, həm sertifikatlaşdırma prosesində, həm də ən vacibi işə qəbul olan müəllimlərimizin keyfiyyətində görünür. Yəni bizim yüzlərlə dil və ədəbiyyat, riyaziyyat, tarix, biologiya müəllimimiz var ki, onlar qəbul imtahanlarında 500-dən çox bal toplayıblar... İndi daha rəqabətli bir iş yerindən danışılır. Rəqabət olan yerdə inkişaf da olur. Yeni nəsil müəllimlərimizin səviyyəsi sertifikatlaşdırma nəticələrində də görünür. Son 5 ildə işə qəbul olunan müəllimlərin sertifikatlaşdırma imtahanındakı orta nəticəsi 25 il və daha çox pedaqoji stajı olan müəllimlərin orta nəticəsindən yüksək olub. Bu da nəticəni aydın şəkildə göstərir.

### Distant təhsil məsələsi gündəmə gələcək

■ Distant təhsil məsələsi gündəmə gələcək. Çünki biz ona səmərəlilik – planlaşdırma xərcləri və prosesin rahatlığı baxımından baxırıq. Eyni zamanda, uşaqların, müəllimin öz kəndindən, yaşadığı məntəqədən uzaqlaşmadan distant təhsilinin mümkün olub-olmaması məsələsinə nəzər yetiririk. Bu model mümkündür və icra olunacaq. Bu model gündəmdədir və düşünürəm ki, növbəti tədris ilindən belə bir pilot model tətbiq olunacaq. Yəni uşaqları daşımadan, onların öz yaşadıqları ərazidə bu modelin tətbiqi nəzərdə tutulur. Dünyanın bir çox yerlərində də bu model artıq tətbiq olunur. Çox yaxşı xəbər odur ki, hazırda demək olar ki, bütün yaşayış məntəqələrimizdə məktəblər fiber-optik internetlə təmin olunub. Eyni zamanda, müvafiq avadanlıqlarla təchizat məsələsini də həll etsək – inanırıq ki, növbəti təqvim ilində bunu həll edəcəyik – növbəti tədris ilindən etibarən bu modelin tətbiqini planlaşdıra biləcəyik.

### Qarabağ Universitetində yeni ixtisaslar və fakültələr açılacaq

■ Növbəti ildə Qarabağ Universitetinə 1200-1500 tələbənin qəbulu planlaşdırılır. Yeni ixtisaslar və yeni fakültələr açılacaq. Sonrakı mərhələdə müəllimlik ixtisaslarının sayı artırıla bilər. Eyni zamanda, kompüter elmləri, informasiya texnologiyaları və digər sahələr üzrə ixtisasların da açılması nəzərdə tutulur. Artıq beynəlxalq proqramların da həyata keçirilməsi planlaşdırılır və əcnəbi tələbələrin qəbulu gözlənilir. Peşə məktəbləri ilə bağlı da planlarımız var. Qarabağ Universiteti ilə əlaqədar olaraq bir neçə binanın tikintisi artıq başa çatıb və istifadəyə veriləcək. Şuşa şəhərində universitetin Musiqi və incəsənət fakültəsinin də yerləşdirilməsi də planlaşdırılır.

### "Tam orta təhsil" layihəsi ali məktəbə hazırlığı təmin edir

■ Pilot layihə kimi tətbiq olunan "Tam orta təhsil" layihəsi 10-11-ci siniflərdə ali məktəbə hazırlığı təmin edir. Pilot olaraq bir neçə bölgədə fəaliyyətinə başlayıb. Bu gün cəmiyyətimizdə ali təhsil almaq bəzən məqsəd yox, bir status simvoluna çevrilib. Hər kəs elə düşünür ki, mütləq ali təhsil almalıdır. Yanvar-fevral aylarında isə bu yeni model üzrə daha geniş ictimai təqdimatın olması planlaşdırılır.

### Peşə təhsilində həm keyfiyyət, həm də kəmiyyət dəyişikliyi

■ Peşə təhsili sahəsində həm keyfiyyət, həm də kəmiyyət dəyişikliyi baş verir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 21 peşə təhsili müəssisənin tikintisi, ikisinin isə əsaslı təmiri nəzərdə tutulub. 2030-cu ilədək mövcud peşə təhsili müəssisələri ilə birlikdə 50 müasir peşə təhsili müəssisəsi olarsa, bu, Azərbaycanın müstəqillik tarixində ilk dəfə belə bir infrastrukturun formalaşması demək olacaq.

# Son illər Azərbaycanda elm və ali təhsil sahəsində ciddi irəliləyişə nail olmuşuq

## Doktorantların və gənc tədqiqatçıların XXVIII Respublika elmi konfransı (NASCO XXVIII) keçirilib



Dekabrın 16-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş Doktorantların və gənc tədqiqatçıların XXVIII Respublika elmi konfransının (NASCO XXVIII) açılış mərasimi baş tutub.

Konfrans Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və ADNSU-nun birgə təşkilatçılığı ilə keçirilib.

Konfransda dövlət rəsmiləri, yerli və xarici qonaqlar, tanınmış elm xadimləri, ali təhsil müəssisələrinin rektorları, professor-müəllim heyəti, doktorantlar və gənc tədqiqatçılar iştirak ediblər.

Konfransdan əvvəl Fəxri xiyaban ziyarət edilərək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın əziz xatirəsi ehtiramla yad olunub, məzarları önünə əklil və gül dəstələri qoyulub.

Açılış mərasimi Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Salamlama nitqi ilə çıxış edən ADNSU-nun rektoru Rüfət Əzizov konfransın ölkənin elmi həyatında uzun illərdir mühüm platforma rolunu oynadığını bildirib. NASCO XXVIII-də dayanıqlı inkişaf məqsədlərinin əhatə olunduğunu deyən rektor statistik göstəricilərə əsaslanaraq qeyd edib ki, NASCO XXVIII 609 qəbul olunmuş iştirakçı ilə ümumi göstəricilər üzrə liderdir. Eyni zamanda, qəbul edilmiş məqalələrin sayı 600-ü ötüb.

Konfrans haqqında geniş təqdimatla çıxış edən rektor onu da diqqətə çatdırıb ki, konfransa Azərbaycandan 61, xarici ölkələrdən isə 11 ali təhsil müəssisəsi və institutun doktorant və gənc tədqiqatçılarının tezisləri qəbul olunub. Rektor ADNSU-da gənc alimlər üçün yaradılmış müasir elmi mühitdən və gənc tədqiqatçıların təşviqinə yönəlmiş imkanlardan danışıb və konfransın yaratdığı elmi imkanların bu istiqamətdə mühüm töhfə olacağını deyib.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev ölkənin elm və təhsil sahəsində əldə olunmuş nailiyyətlər və gələcək prioritetlər barədə danışıb. Nazir xüsusilə vurğulayıb ki, elm və təhsil Azərbaycan üçün strateji prioritetdir və məqsəd yalnız nəzəri biliklərin artırılması deyil, həm də elmin iqtisadiyyat və cəmiyyətlə inteqrasiyasını gücləndirməkdir.

Emin Əmrullayev bildirib ki, sentyabrdan ölkədə tətbiq olunacaq yeni nəsil doktorantura proqramları gənc alimlərin elmi fəaliyyətlərini beynəlxalq standartlara uyğun aparmağa imkan verəcək. Nazir vurğulayıb ki, ali təhsildə multidisiplinar yanaşmanın genişləndirilməsi, AMEA-da aparılan struktur islahatları, qrant və maliyyə mexanizmlərinin modernləşdirilməsi, startap ekosistemi və texnoparkların inkişafı Azərbaycan elmi potensialını gücləndirib. Qeyd edilib ki, bu islahatlar və təşəbbüslər ölkəmizin elm və innovasiya sahəsində gələcək inkişafına əsas yaradır.

Nazir çıxışının sonunda NASCO XXVIII-in gənc alimlər üçün elmi nəticələrin təqdimatı və fikir mübadiləsi baxımından vacib platforma olduğunu qeyd edərək konfransın işinə uğurlar arzulayıb.




**Emin ƏMRULLAYEV:**

**"Son illər Azərbaycanda elm və ali təhsil sahəsində ciddi irəliləyişə nail olmuşuq. Son illər elm və ali təhsilin birgə inkişafı bütün göstəricilərin, keyfiyyətin və məzmunun yaxşılaşmasına zəmin yaradıb. Bir çox ölkələrdə doktorantura təhsilinin neçə ilə bitməsi önəmli deyil. Bu kontekstdə, təbii ki, biz də keyfiyyəti önə çəkməliyik. Təəssüf ki, bizim üçün illər önəmlidir. Biri zaman məsələsidir, digəri isə münasibət. Son illər elmə münasibətdə fərqlilikdən, individualizmdən birgə yanaşmaya, əməkdaşlığa doğru irəliləmək əsas məqsəddir".**

Rəsmi açılış mərasimindən sonra konfrans öz işini bölmələr üzrə davam etdirib.

Qeyd edək ki, iki gün davam edən konfrans çərçivəsində "Akademik Yusif Məmmədəliyevin ölməz irsi və müasir kimyanın perspektivləri", "Elm əsaslı innovasiya" mövzularında panel müzakirələr və müxtəlif elmi istiqamətlərini əhatə edən elmi məruzələr təşkil olunub.

Konfransın əsas məqsədi gənc tədqiqatçıların elmi fəaliyyətini stimullaşdırmaq, elmi fikir mübadiləsini genişləndirmək və təcrübə paylaşımı üçün platforma yaratmaqdır.

# Təhsilin İnkişafı Fondunun yeni sədri və Peşə Təhsili üzrə Dövlət Agentliyinin yeni direktoru kollektivlərə təqdim olunub

Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yeni sədri Nicat Məmmədli kollektivə təqdim edilib.

Təqdimat mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Nicat Məmmədlini yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir fondun təhsil sahəsində həyata keçirilən islahatların dəstəklənməsində mühüm rol oynadığını vurğulayıb, prioritet istiqamətlər və əsas hədəflər barədə fikirlərini bölüşüb.



Emin Əmrullayev fondun fəaliyyətinin səmərəliliyinin artırılmasının, innovativ təşəbbüslərin dəstəklənməsinin və dövlət—özəl tərəfdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edib.

Tədbirdə çıxış edən Nicat Məmmədli ona göstərilən etimada görə təşəkkür edib, Təhsilin İnkişafı Fondunun fəaliyyətinin inkişafı istiqamətində məqsədyönlü və sistemli işlərin aparılacağını və bunun üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

***



Peşə Təhsili üzrə Dövlət Agentliyinin yeni direktoru İlqar Bayramlı kollektivə təqdim edilib.

Təqdimat mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev İlqar Bayramlını yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir peşə təhsilinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığında mühüm rol oynadığını qeyd edərək bu sahədə həyata keçirilən islahatlar və qarşıdakı dövr üçün əsas prioritetlər barədə danışıb.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin "Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələri xüsusi qeyd edib, həmçinin işəgötürənlərlə əməkdaşlığın genişləndirilməsinin və peşə təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinin vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən İlqar Bayramlı göstərilən etimada görə təşəkkür edib, agentliyin fəaliyyətinin dövlət siyasətinə uyğun şəkildə daha da təkmilləşdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

# “Bir Könüllü” 10 yaşını qeyd etdi

**Könüllülük fəaliyyəti gənclərin potensialının inkişafında, ictimai fəallığının artırılmasında və vətəndaş cəmiyyətinin güclənməsində mühüm rol oynayır**







Dekabrın 18-də “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin yaradılmasının 10 illiyi münasibətilə “10 il birlikdə” adlı yubiley tədbiri təşkil olunub.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Könüllü Təşkilatları İttifaqının tərəfdaşlığı ilə keçirilən yubiley tədbirində dövlət qurumlarının yüksək vəzifəli nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, ali və orta ixtisas təhsil müəssisələrinin əməkdaşları, eləcə də gənclər və könüllülər iştirak ediblər.

Tədbir Azərbaycan Milli Konservatoriyasının tələbələrindən ibarət xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.

Daha sonra “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin 10 illik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib, təşkilatın son 10 il ərzində həyata keçirdiyi layihələr və əldə etdiyi nəticələr barədə geniş təqdimat göstərilib. Bildirilib ki, təşkilat bu müddət ərzində 26 ali və 18 orta ixtisas təhsili müəssisəsini əhatə edən şəbəkə qurub, 8 şəhər üzrə 800-dən çox layihə və tədbir həyata keçirib, ümumilikdə




338896 könüllü saatı qeyd olunub.

Tədbirin rəsmi hissəsində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov gənclərin ictimai fəallığının artırılması və sosial məsuliyyətin təşviqi baxımından könüllülük fəaliyyətinin əhəmiyyətini vurğulayıb.

Nazir müavini qeyd edib ki, “Bir Könüllü” təşkilatı 2015-ci ildən fəaliyyət göstərir və hazırda 45 minə yaxın iştirakçı ilə 44 təhsil müəssisəsini əhatə edir. O, gəncləri bilik və bacarıqlarını artırmağa, təşəbbüskar və məsuliyyətli olmağa çağırıb.

Digər çıxışçılar da könüllülük fəaliyyətinin gənclərin potensialının inkişafında, ictimai fəallığının artırılmasında və vətəndaş cəmiyyətinin güclənməsində oynadığı rol barədə fikirlərini bölüşüblər.

Tədbir çərçivəsində “BİRlikdə yazılan hekayə” videoçarxı nümayiş olunub, ardından “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin fəaliyyətində fəallığı və təşəbbüskarlığı ilə fərqlənmiş 30 gənc könüllü mükafatlandırılıb.

Tədbir bədii hissə ilə davam edib.

**Mərziyyə KAZIMZADƏ**

# Gənclərdə milli-mənəvi dəyərlərin formalaşması çox önəmlidir



**Firudin QURBANOV:**

**“Təhsil prosesində şagirdlərdə bilik, bacarıq və vərdişlərlə yanaşı, milli-mənəvi dəyərləri də formalaşdırmalıyıq. Gənclərdə milli-mənəvi dəyərlərin formalaşması çox önəmlidir. Xalqın formalaşması uşaqların formalaşmasından asılıdır. Burada təhsilin rolu çox önəmlidir. Bəzən sosial şəbəkələrdə dinlə bağlı yayılan məlumatlar radikallığa və ekstremizmə gətirə bilər. Son dövrlərdə sosial şəbəkələrdə dinlə bağlı çox məlumatlar yayılır. Bir tərəfdən bu məlumatlar insanları maarifləndirirsə, bəzən də radikallığa və ektremizmə gətirir. Belə halda təhsil öz rolunu oynayır. Təhsilin əsas məqsədlərindən biri məhz mənəvi-əxlaqi dəyərlərin gənc nəslə aşılanması olmalıdır. Bu, pedaqoji yanaşmalar baxımından son dərəcə vacib məsələdir. Təhsil perspektivlərində mənəvi və əxlaqi dəyərlərə xüsusi həssaslıqla yanaşılmalıdır. Çünki biz gələcəyimizi milli-mənəvi dəyərlərə söykənən gənclər üzərində qurmalıyıq”.**

## “Dini düşüncə mədəniyyəti: pedaqoji perspektivlər” mövzusunda konfrans keçirilib



Dekabrın 15-də Elm və Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə “Dini düşüncə mədəniyyəti: pedaqoji perspektivlər” mövzusunda konfransın açılış mərasimi baş tutub.

Konfransın əsas məqsədi yeniyetmə və gənclərin sağlam dini biliklərə yiyələnməsi, onların milli-mənəvi dəyərlərə və Vətənə sədaqət ruhunda tərbiyə olunması, həmçinin yad dini-ideoloji təsirlərdən qorunması istiqamətində maarifləndirmə fəaliyyətinin daha sistemli şəkildə təşkili yollarını müzakirə etməkdir.

Konfransın açılış mərasimində tədbirin mövzusunun aktuallığına toxunan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, konfrans çərçivəsində aparılan müzakirələr din və təhsil münasibətlərinin düzgün qurulması, gənc nəslin sağlam düşüncə ruhunda formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu mövzuların müzakirəsi gələcəkdə daha sistemli və effektiv yanaşmaların formalaşmasına töhfə verəcək.

Konfransda çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov konfransın mövzusunun ölkəmizin sürətli inkişafı və müasir dövrün çağırışları fonunda xüsusi aktuallıq kəsb etdiyini vurğulayıb. Firudin Qurbanov bildirib ki, mənəvi-əxlaqi yönümlər və ənənəvi dəyərlər təhsil prosesində xüsusi əhəmiyyət qazanır və şagirdlərin, tələbələrin şəxsiyyət kimi formalaşmasına təsir edir.

Nazir müavini qeyd edib ki, Azərbaycanda təhsil dünyəvi xarakterdə olsa da dini fanatizmlə mübarizədə mühüm rol oynayır, çünki o, tənqidi düşüncəni, tolerantlığı, müxtəlif dinlərin və mədəniyyətlərin əsasları haqqında bilikləri inkişaf etdirir, həmçinin rasional təhlil bacarıqlarını formalaşdırır.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov ölkədə din təhsili ilə bağlı məsələlərə diqqət çəkərək din mədəniyyətinin xüsusilə məktəblərdə öyrədilməsinin faydalı olduğunu deyib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa dünyəvi dövlətdə dini dünyagörüşünün formalaşmasında dini düşüncənin düzgün anlaşılmasının və onun dünyəvi prinsiplər əsasında öyrədilməsinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Çıxışlardan sonra konfrans işini “Gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi: pedaqoji yanaşmalar və müasir təlim modelləri” və “Dini fanatizm, xurafat və radikalizmlə mübarizədə məktəbin maarifləndirici missiyası” adlı panellərlə davam etdirib.

# “Elm və təhsil obyektivdə” foto-video müsabiqəsinin qalibləri mükafatlandırılıb







Dekabrın 17-də Elm və Təhsil Nazirliyi tərəfindən təşkil olunan “Elm və təhsil obyektivdə” foto-video müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Bakı Fotoqrafiya Evində baş tutan tədbirdə Elm və Təhsil Nazirliyinin və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının rəsmiləri, millət vəkilləri, müsabiqənin münsiflər heyətinin üzvləri, media qurumlarının rəhbərləri, müsabiqə iştirakçıları və digər qonaqlar iştirak ediblər.

Tədbirdən öncə müsabiqə çərçivəsində seçilmiş foto və video işlərdən ibarət sərgi ilə tanışlıq olub.

Tədbir çərçivəsində həmçinin müsabiqənin münsiflər heyətinin sədri, Ümummilli Lider Heydər Əliyevin şəxsi fotoqrafı kimi fəaliyyət göstərmiş Rafiq Bağırovun müəllifi olduğu “Heydər Əliyev və təhsil” mövzusunda foto guşə təqdim edilib. Guşədə Ulu Öndər Heydər Əliyevin müxtəlif təhsil müəssisələrində şagird və tələbələrlə birlikdə çəkilmiş 30-a yaxın fotosu nümayiş etdirilib.

Mükafatlandırma mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qonaqları salamlayaraq foto və videonun yaddaşı və tarixi yaşadan mühüm vasitə olduqlarını qeyd edib. Nazir müavini bildirib ki, foto yalnız görüntü deyil, eyni zamanda insanlara emosiyaları və hissləri ötürən güclü bir vasitədir. Firudin Qurbanov foto sənətinin inkişaf mərhələlərinə toxunaraq bu sahənin sürətlə rəqəmsal mərhələyə keçdiyini deyib.

Nazir müavini tədbir çərçivəsində Ulu Öndərə həsr olunmuş foto guşənin təqdim edilməsinin xüsusi məna daşıdığını bildirib, Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi yüksək diqqət və qayğıdan danışıb. Firudin Qurbanov əsası Ulu Öndər tərəfindən qoyulan təhsil siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Çıxışının sonunda nazir müavini qalibləri təbrik edib, müsabiqənin təşkilatçılarına və münsiflər heyətinə təşəkkürünü bildirib.

Millət vəkili Elçin Mirzəbəyli çıxışında foto və video sənətinin tarixi yaşadan və gələcək nəsillərə ötürən mühüm vasitə olduğunu qeyd edib. Azərbaycan xalqının gələcəyinin elm və təhsillə sıx bağlı olduğunu vurğulayan millət vəkili bu kimi müsabiqələrin fotoqrafiya və fotoqalereya sənətinin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb. Çıxışının sonunda isə müsabiqə qaliblərini təbrik edib, iştirakçılara uğurlar arzulayıb.

Müsabiqənin münsiflər heyətinin sədri Rafiq Bağırov Elm və Təhsil Nazirliyi tərəfindən belə bir müsabiqənin təşkil edilməsini yüksək qiymətləndirərək təşəkkürünü bildirib. O, Ulu Öndər Heydər Əliyevin şəxsi fotoqrafı kimi fəaliyyət göstərdiyi dövrlərlə bağlı xatirələrini bölüşərək həmin illərin tarixi və mənəvi əhəmiyyətindən bəhs edib.

Rafiq Bağırov bu cür müsabiqələrin foto, video sənətinin inkişafına və tarixi yaddaşın qorunmasına mühüm töhfə verdiyini vurğulayıb, gələcəkdə də hər kəsi bu tip təşəbbüslərdə fəal iştiraka çağırıb. Çıxışının sonunda müsabiqənin təşkilinə görə Elm və Təhsil Nazirliyinə bir daha təşəkkürünü ifadə edib.

Çıxışlarda müsabiqənin elm və təhsil sahəsində baş verən proseslərin vizual ifadəsinin təşviqi, eləcə də yaradıcı şəxslərin və media nümayəndələrinin bu sahədə fəal iştirakının artırılması baxımından əhəmiyyəti vurğulanıb.

Daha sonra qaliblərə diplom və mükafatlar təqdim edilib. Foto kateqoriyası üzrə ilk üç yerin qaliblərinə diplomlar, ən yaxşı beş işin müəlliflərinə isə həvəsləndirici sertifikatlar təqdim olunub. Video kateqoriyası üzrə ilk üç yerin qalibləri diplomlarla təltif edilib. Digər iştirakçılara müsabiqədə iştiraklarına dair sertifikatlar verilib.

Qeyd edilib ki, foto və video məzmun olmaqla iki kateqoriya üzrə keçirilən müsabiqədə peşəkar və həvəskar vizual məzmun yaradıcıları, foto-müxbirlər və media nümayəndələri iştirak ediblər. Müsabiqəyə ümumilikdə 100-ə yaxın müraciət daxil olub, 245 iş qəbul edilib. Qəbul olunan işlərdən 10-u video, 235-i isə foto materiallardır. Müsabiqə qaydalarına uyğun olaraq texniki meyarlara cavab verən 25 iş münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunan müsabiqə Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının tərəfdaşlığı, Təhsil TV və “Azərbaycan müəllimi” qəzetinin dəstəyi ilə təşkil olunub.

Müsabiqənin əsas məqsədi elm və təhsil prosesində maraqlı tərəflərin iştirakının artırılması, aktual mövzulara fərqli baxış bucaqlarından yanaşılmaqla keyfiyyətli və yaradıcı vizual məzmunun formalaşdırılmasını təşviq etmək olub.

# "Yarat, inkişaf et, tətbiq et!"



## Firudin Qurbanov Azərbaycan Texniki Universitetinin 75 illik yubiley tədbirində çıxış edib







Dekabrın 19-da Azərbaycan Texniki Universitetinin (AzTU) 75 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə universitetin foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə güllər düzülüb, əziz xatirəsi ehtiramla anılıb.

Tədbirdə torpaqlarımızın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycanın Dövlət Himni səsləndirilib.

Açılış nitqi ilə çıxış edən AzTU-nun rektoru Vilayət Vəliyev qonaqları salamlayaraq universitetin 75 illik tarixinə nəzər salıb. Rektor bildirib ki, 75 ildir AzTU təkcə mühəndis kadrlar hazırlamır, bu ali təhsil müəssisəsi həm də vətənpərvər şəxsiyyətlər formalaşdırır. AzTU hər zaman öz tələbə və məzunlarının uğurları ilə qürur duyur. 44 günlük Vətən müharibəsində şanlı Zəfərin qazanılmasında da AzTU-nun tələbə və məzunlarının yaxından iştirak etməsi onların vətənpərvər ruhunun yüksək olmasının göstəricisi idi.

Vilayət Vəliyev qeyd edib ki, "Yarat, inkişaf et, tətbiq et!" şüarı ilə irəliləyən AzTU-nun hədəfi sənayenin inkişafını və texnoloji gələcəyi qarşılayan məsələlərin həllini öyrədən yenilikçi-təşəbbüskar akademik, məzun və tələbə heyəti ilə araşdırma və sahibkar universiteti qurmaq, hazırlanan mühəndis kadrların səviyyəsini beynəlxalq standartlar səviyyəsinə yüksəltməkdir.

AzTU-nun 75 illik yubileyi münasibətilə təbriklərini çatdıran elm və təhsil nazirinin müavini Firudin Qurbanov şəxsiyyətin formalaşmasında universitetlərin rolundan danışıb. Bu istiqamətdə dünya təcrübəsinə nəzər salan Firudin Qurbanov peşəkarlığa fərqli konteksdən yanaşıb. Bildirib ki, peşəkarlıq həm də böhran vəziyyətində düzgün qərar vermək bacarığıdır. Bu bacarığa malik şəxsiyyətləri də universitetlər formalaşdırır. Bu mənada universitetlərin rolu insanların formalaşması baxımından çox mühüm əhəmiyyətə malikdir. Nazir müavini AzTU məzunlarının ölkənin müxtəlif sahələrində uğurlu fəaliyyətlərini də qeyd edib. Bildirib ki, hazırda ölkənin ən aparıcı ali təhsil müəssisələrindən olan AzTU müasir standartlar səviyyəsində yeniliklərin tətbiq olunduğu universitetlərdəndir.

AzTU-nun fəxri məzunu, dövlət xadimi, diplomat, tarixçi-alim, tarix elmləri doktoru, keçmiş xarici işlər naziri və keçmiş səfir Həsən Həsənov təhsil aldığı ali təhsil müəssisəsini təbrik edib, universitet illərindəki xatirələrindən danışıb. Mühəndislik peşəsinin dünyanın ən aparıcı peşələrindən olduğunu deyən Həsən Həsənov tələbələri ixtisaslarının sirlərinə yiyələnməyi tövsiyə edib. Bildirib ki, mühəndislik insanda ilk növbədə düşüncə qabiliyyətini formalaşdırır. O, karyerasında əldə etdiyi uğurların mərkəzində məhz AzTU-nun dayandığını və hər zaman bu universitetin professor-müəllim heyətinə minnətdar olduğunu vurğulayıb.

AzTU-nun fəxri məzunu, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini, general-mayor Allahverən İsmayılov da doğma universitetinin 75 illik yubileyi münasibətilə təbriklərini çatdırıb. Allahverən İsmayılov tələbəlik illərindəki xatirələrini bölüşüb və universitetin onun formalaşmasında əhəmiyyətli rolundan danışıb.

AzTU-nun fəxri məzunu, AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev universitetin 75 il ərzində qazandığı uğurlardan bəhs edib. Akademik vurğulayıb ki, mühəndislik yaradıcı peşədir. Artıq dünyada öyrədilən biliklərin tətbiqi və real problemlərin həllində istifadəsi əsas məsələlərdəndir. Bu gün dünyanı formalaşdıran innovasiya, yaradıcılıq və praktiki bacarıqların birləşməsidir. Rasim Əliquliyev çıxışında AzTU-nun hazırladığı mühəndis kadrların uğurlarına da diqqət çəkib və universitetdə təhsil aldığı illərdə ən maraqlı xatirələri tədbir iştirakçıları ilə bölüşüb.

Daha sonra çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri Jalə Əhmədova AzTU-nun 75 illik yubileyi münasibətilə təbriklərini çatdırıb və nazirliklə universitetin birgə layihələr həyata keçirdiyini, bu layihələrin tələbələrin inkişafına müsbət töhfə verdiyini qeyd edib.

Tədbirdə Özbəkistanın Fərqanə Dövlət Universitetinin professoru Ehtiyat İbragimova rektor Bahodircon Şermuhammadovun AzTU-nun yubileyinə ünvanladığı təbrik mətnini oxuyub.

Türkiyənin Yıldız Texniki Universitetinin prorektoru Hüseyn Yılmaz da AzTU-nun yubileyini təbrik edib, universitetin fəaliyyətində uğurlar arzulayıb.

Sonra elm və təhsil naziri Emin Əmrullayevin əmri ilə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı və fəxri fərmanlarla təltif olunan AzTU müəllimlərinə mükafatlar təqdim edilib.

Tədbir Qarabağ Universitetinin "Cadenza" orkestrinin ifası ilə davam edib.

# Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyi hesabatını təqdim etdi

## Nazir müavini Ümumi Yığıncaqda iştirak edib






Dekabrın 18-də Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin Ümumi Yığıncağı keçirilib.

Konfransda gündəlikdə duran məsələlər elan olunub, 2025-ci il ərzindəki fəaliyyət haqqında Federasiyanın prezidenti Firudin Qurbanov tərəfindən hesabat təqdim edilib.

Konfransın gündəliyində yer alan məsələlərə əsasən İcraiyyə Komitəsinin say tərkibində dəyişiklik edilib, Komitə üzvlərinin sayı 7-dən 9-a artırılıb. Azərbaycan Tələbə Liqasının cari ildəki fəaliyyətinin və Təftiş Komissiyasının yekun hesabatı təqdim edilib.

Konfrans zamanı Xorvatiyada keçirilən 14-cü Futzal üzrə Universitetlərarası Avropa çempionatında ölkəmizi uğurla təmsil edən və çempion adını qazanan Azərbaycan İdman Akademiyasının komandasının bu nailiyyətinə görə ATFF İB-nin rəhbərliyinə təşəkkür edilib.

Konfrans iştirakçılarının səsverməsi nəticəsində Tehranağa Abdullayev, Tural Qarayev, Elşad Quliyev İcraiyyə Komitəsinə üzv seçiliblər.

Konfransda ATFF İB İcraiyyə Komitəsinin üzvləri, Azərbaycan İdman Akademiyasının rektoru Fuad Hacıyev, ATFF İB-yə üzv olan ali və orta ixtisas təhsili müəssisələrinin nümayəndələri, veteran futbolçular iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin əsas məqsədi ali və orta ixtisas təhsili müəssisələrində futbol idman növünü inkişaf etdirmək, daha çox komandaların çempionatlarda, tələbə futbol yığma komandalarının beynəlxalq səviyyədə iştirakını təmin etməkdir.

# ADNSU ilə bir sıra universitetlər arasında əməkdaşlıq memorandumları imzalanıb

Dekabrın 16-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş Doktorantların və gənc tədqiqatçıların XXVIII Respublika elmi konfransı çərçivəsində mühüm əməkdaşlıq sənədləri də imzalanıb.

Tədbir çərçivəsində ADNSU ilə ölkənin bir sıra aparıcı ali təhsil müəssisələri arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan memorandumlar rəsmiləşdirilib. Memorandumlar Sumqayıt Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Qarabağ Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Universiteti ilə imzalanıb.

İmzalanan sənədlər ali təhsil və elmi-tədqiqat sahəsində əlaqələrin daha da möhkəmləndirilməsinə, birgə elmi layihələrin icrasına, doktorant və gənc tədqiqatçıların elmi fəaliyyətinin stimullaşdırılmasına, akademik mübadilə imkanlarının artırılmasına xidmət edir. Memorandumlar çərçivəsində elmi konfransların, seminar və simpoziumların təşkili, birgə nəşrlərin hazırlanması, innovativ tədqiqatların dəstəklənməsi və müasir elmi çağırışlara uyğun əməkdaşlıq mexanizmlərinin yaradılması nəzərdə tutulur.

Konfrans "Konstitusiya və Suverenlik İli" çərçivəsində təşkil olunaraq ölkədə elmin və təhsilin inkişafında gənc alimlərin roluna diqqət çəkib. Tədbirdə müxtəlif ali təhsil müəssisələrindən olan doktorantlar və gənc tədqiqatçılar aktual elmi mövzular üzrə məruzələrlə çıxış ediblər, fikir və təcrübə mübadiləsi aparılıb.

# QƏRBİ AZƏRBAYCAN BİZ QAYIDACAĞIQ!



Göyçə mahalının Cil kənd orta məktəbi - 100

"Azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır... Biz İrəvana, Zəngəzura, Göyçəyə mütləq qayıdacağıq".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



# Tariximiz, taleyimiz

**Tarix yalnız keçmişi öyrənmək deyil, həm də bu günün və gələcəyin dərk edilməsində əsas vasitədir. Keçmişi bilmədən bu günü və sabahı qurmaq mümkün deyil. Tarix hər bir millətin güzgüsü və gələcəyini müəyyən edən mayakdır; millət özünü yalnız tarixinin köməyi ilə dərk edə bilər. Azərbaycanın indiki hüquqi-coğrafi sərhədlərindən kənarda qalmış Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndinin tarixi, mədəniyyəti, təhsil-tərbiyə ənənələri və qəhrəmanlıq tarixləri öyrənilməli və gələcək nəsillərə çatdırılmalıdır. Bu kəndlə bağlı olan hər bir gənc doğma yurda qayıtma inamı ilə böyüdülməli, bu yerlərə sülh şəraitində, təhlükəsiz və ləyaqətli şəkildə geri qaytarılacağına inanmalıdır.**

### Cil kəndində məskunlaşma

Relyef baxımından bir amfiteatrı xatırladan Cil kəndi Göyçə gölünün sahilində, Çəmbərək rayon mərkəzindən 28 km cənub-şərqdə, dəniz səviyyəsindən 2040 m hündürlükdə yerləşirdi. Ermənistan Sovet Ensiklopediyasında Cil kəndinin əsasının XII əsrdə qoyulduğu bildirilir. Kənddə mövcud olmuş abidələr - alban qəbiristanlığı və kilsələri, oğuz (uğuz) qəbiristanlığı, qalaçalar, insan yaşayışının izləri olan mağaralar, qazıntı zamanı tapılan saxsı qablar, müxtəlif fiqurlar bu ərazinin lap qədim zamanlardan yaşayış məskəni olduğunu sübut edir. Kənddə oda sitayiş edən albanların, oğuzların və müsəlmanların ümumi mədəniyyətinin sintezi olan maddi və mənəvi mədəniyyət mövcud idi. Qafqazın 5 verstlik xəritəsində Cil kəndinin adı çəkilir. Bəzi mənbələrdə Cilkəndi kimi qeyd edilir. Əvvəllər İrəvan quberniyasının Yeni Bəyazid qəzasının, sonra Basarkeçər rayonunun, 31 dekabr 1937-ci ildən isə Çəmbərək (Krasnoselo) rayonunun tərkibində olub. Hazırda Geğarkunik vilayətinə aiddir.

Çar Rusiyası dövründə tərtib edilmiş kameral təsvirlərə görə, kənddə 1831-ci ildə 45 ailə (159 kişi, 106 qadın), cəmi 265 adam yaşayırmış. Ailələrin hamısı qarapapaq tayfasına mənsub olub. 1891-ci ildə kənddə 308 nəfər (160 kişi, 148 qadın) yaşayırmış. 1909-cu ilin yanvar ayına olan məlumata görə, Yeni Bəyazid qəzasında 4-cü polis sahəsində 4 kənd cəmiyyəti, 49 kənd var idi ki, onlardan biri Cil kəndində yerləşirdi. Cil kənd cəmiyyətinə 8 kənd daxil idi. 1886-cı ildə kənddə 587, 1897-ci ildə 739, 1908-ci ildə 975, 1914-cü ildə 1020 (1035), 1916-cı ildə 893, 1919-cu ildə 888, 1979-cu ildə 1519, 1988-ci ildə 1700 azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrında kənd camaatı erməni vandalları tərəfindən tarixi torpaqlarından deportasiya olunmuşdur.

### Cil kəndində dini təhsil

Türk və islam coğrafiyasının bir parçası olan Göyçə mahalının Cil kəndində orta əsrlərdən etibarən dini təhsilə xüsusi diqqət yetirilmişdir. 1831-ci ilə aid məlumatlara görə, kənddə dini ayinlərin icrası və dini təhsilin təşkili ilə Axund Molla Nağı Molla Həsən oğlu və Molla Məmmədəli Əli oğlu məşğul olmuşdur. Bu faktlar həmin dövrdə Cil kəndində dini təhsilin müəyyən ənənəyə və inkişaf səviyyəsinə malik olduğunu göstərir. Məktəb, ədətən, mollaların evlərində təşkil olunur, Qurani-Kərimin oxunuşu və təfsiri, ərəb və fars dilləri, İslam hüququ (fiqh) və əxlaq öyrədilirdi.

Cil kəndində çar Rusiyası tərəfindən qeydə alınan ilk məktəb 1876-cı ilə aiddir. İrəvan-Yelizavetpol (Gəncə) xalq məktəbləri direksiyasına aid təhsil müəssisələrinin yerləşməsi ilə bağlı həmin il tərtib edilmiş xəritənin "xüsusi məktəblər" bölməsində Cil kəndində tatar (müsəlman - R.F.) məktəbinin mövcudluğu qeyd olunmuşdur.

### Cil kənd ibtidai məktəbi

Ermənistan sovetləşdirildikdən sonra Cil kəndində I dərəcəli (5 illik ibtidai məktəb) məktəb 1923/1924-cü tədris ilində açılıb. Ermənistanda azərbaycanlıların təhsil aldığı məktəblərin tədris qrafiki və tədris planı Azərbaycan məktəbləri ilə eyni idi. Cil kəndində ibtidai məktəb açmağın böyük çətinlikləri var idi. Məktəb üçün yararlı binanın, tədris avadanlıqlarının (parta, stol, stul, lövhə və s.), tədris resurslarının (dərslik, dərs vəsaiti, xəritə, qlobus və ixtisaslı müəllimin) olmaması ciddi çətinlik yaradırdı. Digər tərəfdən uşaqların təhsilə cəlb edilməsində də müəyyən çətinliklər var idi. Bu çətinlikləri məktəbin ilk müəllimi və müdiri olan Alı Xələf oğlu belə nəql edir: "Cil kəndində sovet məktəbinin yaradılmasında çox böyük çətinliklə üz-üzə gəlmişdik. Nə məktəb, nə müəllim var idi. Ən böyük çətinlik isə gənclərin məktəbə cəlb edilməsi idi. Köhnə fikirli adamlar, mollalar bu işə çox mane olurdular. Nəhayət, 1923-cü ildə məktəbi aça bildik, müəllim olmadığından özüm bu işə cəlb edilmişdim, qalan müəllimlər isə başqa yerlərdən gətirilmişdi".

### Cil kənd 7 illik məktəbi

İcbari ibtidai təhsilin həyata keçirilməsi yeddiillik məktəblərin şəbəkəsinin genişlənməsinə səbəb oldu. 1934-cü ildə Basarkeçər rayonunda 12 yeni məktəb binası istifadəyə verildi ki, onlardan da biri Cil kəndində tikilmişdi. Məktəbdə politexnik sənətxana (emalatxana) və internat təşkil edilmişdi. 1934-cü ildə Cil kənd ibtidai məktəbi yeddiillik məktəbə çevrildi. 1930-cu ildən Cil kənd ibtidai məktəbinə rəhbərlik edən Fətullah Əhmədov yediillik məktəbə müdir təyin edildi. 1937-ci ildə məktəbdə tədris işləri üzrə direktor müavini işləyən Məmmədqulu Abbasov məktəbə direktor təyin edildi. O, bu vəzifədə 2 il (1937-1939) işlədi. Krasnoselo Rayon İcraiyyə Sovetinə inspektor vəzifəsinə irəli çəkildiyindən onu İslam Adıgözəlov (1939-1941) əvəz etdi. Müharibədən sonrakı illərdə məktəbə iki qardaş - Əli və Məmmədqulu Abbasovlar rəhbər etdilər.

### Cil kənd 7 illik məktəbi müharibə illərində

Cil kəndinin camaatı sovet-alman müharibəsinin (1941-1945) ağrı-acısını yaşayıb. 250 nəfərdən çox igid oğlunu dünyanı lərzəyə gətirən bu müharibəyə, odun-alovun içərisinə yola salıb. Kiçik bir kənddən 250 nəfərin müharibəyə göndərilməsi erməni xəyanətinin və hiyləgərliyinin bariz nümunəsidir. Elə bir ailə yoxdur ki, oradan bir-iki, hətta üç-dörd qardaş müharibəyə göndərilməsin. Bu, ermənilərin 1918-1920-ci illərdə Göyçədə törətdikləri qırğından və fəlakətdən daha dəhşətlidir. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər azərbaycanlıların sayının azaldılması, fiziki cəhətdən məhv edilməsi üçün müharibə dövründə yaranan təbii imkandan maksimum istifadə edərək səfərbərliklə bağlı respublikaya ayrılan yerləri əsasən azərbaycanlıların hesabına doldururdular. Müharibəyə səfərbər olan cillilərin 50%-i ya həlak olub, ya da itkin düşüb. Müharibə zamanı ən böyük zərbə Cil kənd yeddiilik məktəbinə dəyib. Formalaşmaqda olan təhsil mühiti darmadağın edilib. Cil kənd yeddiillik məktəbinin müdiri və kişi müəllimləri səfərbərliyə alınaraq ön cəbhəyə göndərilib ki, onlardan da heç biri geri qayıtmayıb. Səfərbər olan kişi müəllimlərinin yerinə rayon mərkəzində 1-2 ay kurs keçən qadınlar təyin olunub ki, bu da tədrisin səviyyəsinin aşağı düşməsinə və uzunmüddət 8 illik və orta məktəbin yaradılmamasına səbəb olub.



### Cil kənd 8 illik məktəbi

1960-1961-ci tədris ilində Cil kənd yeddiillik məktəbi səkkizillik məktəbə çevrildi. 1961-1962-ci illərdə Cil kənd səkkizillik məktəbinə Səməd Həsənov, 1962-1966-cı illərdə Bağır Bağırov, 1966-1968-ci illərdə Abbasəli Kərimov, 1968-1969-cu illərdə İsabala Qurbanov rəhbərlik edib. Cil kənd məktəbi üçün ikimərtəbəli tədris binasının tikilməsi həmin illərə təsadüf edir.

### Cil kənd orta məktəbi

1967-1968-ci tədris ilində Cil kənd səkkizillik məktəbi onillik orta məktəbə çevrildi. Həmin dövrdə məktəbdə 469 nəfər şagird təhsil alırdı.1968-1969-cu tədris ilində Cil kənd orta məktəbinin ilk buraxılışı oldu. 20 nəfər məzundan 14-ü (70%) yüksək qiymətlərlə Azərbaycanın ali məktəblərinə daxil oldu. Cil kənd orta məktəbinin 1969-1988-ci illərdəki tədris həyatı və pedaqoji uğurları məktəbin direktoru Şərif Namazovun (1939-2013) adı ilə bağlıdır. 1968/1969-cu tədris ilində məktəb üçün yeni 2 mərtəbəli bina istifadəyə verildi. Sonrakı illərdə şagirdlərin sayının artması, tədrisin kabinet sisteminə keçirilməsi yeni tədris binasının tikintisi ilə nəticələndi. 1984-1987-ci illərdə müasir infrastruktura malik yeni məktəb binası tikildi. 1987-ci ilin sentyabr ayının 1-də 800-ə yaxın şagirdin təhsil ala biləcəyi üçmərtəbəli tədris binasının açılışı oldu. Təəssüf ki, məktəblilərin sevinci uzun sürmədi. 1988-ci ilin noyabrında məktəb öz fəaliyyətini dayandırmalı oldu.

1968-1988-ci illərdə Cil kənd orta məktəbi regionun qabaqcıl təhsil müəssisələrindən biri olub. Məktəbin tədris səviyyəsi həmişə yüksək qiymətləndirilib, məzunların ali məktəbə qəbul faizi digər kənd məktəbləri ilə müqayisədə xeyli yüksək olub. Məktəbin məzunları həm təlimdə, həm də rayon və respublika səviyyəli yarış və müsabiqələrdə, olimpiadalarda yüksək yerlər tutublar. Məktəbi qızıl medalla (Cavanşir Rəhimov, Şahvələd Namazov, Mustafa Rəhimov, Elmar Məmmədov, Yusif Sadıqov) və gümüş medalla (Gözəl Namazova, Sultan Tağıyev) bitirən məzunlar məktəbin yüksək təhsil göstəricilərini rəsmi şəkildə təsdiq etmişlər.

### Cil kənd orta məktəbinin müəllimləri

Cil kənd orta məktəbinin məzunlarından 1000-dən çoxu həm Rusiyanın, həm də Azərbaycanın ali məktəblərində təhsil almış, müxtəlif sahələrdə xidmət göstərmişdir. Müəllim adına layiq görülənlər həm indiki Ermənistan ərazisindəki Azərbaycan məktəblərində, həm də Azərbaycanın müxtəlif rayon və kəndlərində uğurlu pedaqoji fəaliyyət göstərərək maarifin və maarifçiliyin inkişafına əvəzsiz töhfələr vermişdir. Vaxtilə mənə dərs demiş Daşdəmir Tağıyev, Allahverdi Sadıqov, Valeh İsmayılov, Haqverdi İbrahimov, Fərman Əhmədov, Nəriman Həsənov, Yunis Allahverdiyev, Həsən Məsimov, Əli Məmmədov, Əli Adıgözəlov, Məhəmməd Hüseynov, Razim Əfənov, Dilbər İbrahimova, Abbas Ələsgərov, Sədaqət Tanrıverdiyev və Bayram Qurbanovun adlarını bu gün böyük hörmət və dərin ehtiramla xatırlayıram. Onlar yalnız bilik verən müəllimlər deyil, həm də dünyagörüşümüzü formalaşdıran, bizi həyatın çətinliklərinə hazır edən fədakar ziyalılar idilər. Hər birinin zəhməti, məsuliyyəti və müəllimlik peşəsinə olan sədaqəti bizlərə yol göstərən bir örnək kimi yaddaşımızda yaşayır.

### Cil kənd məktəbinin məzunları

Cil kəndinin məzunları zaman-zaman alim, general, müəllim, iqtisadçı, mühəndis, texnik və digər sahələrin peşəkarları kimi fəaliyyət göstərmiş, doğma məktəblərinə həmişə şərəf və şöhrət gətirmişlər. Onlar əldə etdikləri uğurlarla yalnız öz adlarını deyil, həm də kəndimizi və məktəbimizi ucaldaraq gənc nəsillərə nümunə olmuşlar.

Xüsusilə qeyd etmək lazımdır ki, kəndimizin yetirmələri olan bir sıra görkəmli şəxslər - tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti Abuzər Xələfov, fizika-riyaziyyat elmləri doktoru, professor, Nyu-York Akademiyasının həqiqi üzvü Ayvaz Xələfli, fizika-riyaziyyat elmləri doktoru, professor, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar müəllim Zübeyit Tağıyev, iqtisad elmləri doktoru, professor, Beynəlxalq Menecment Akademiyasının və Avropa Təbii Elmlər Akademiyasının həqiqi üzvü Əvəz Ələkbərov, iqtisad elmləri doktoru, professor Əli Allahverdiyev, fizika-riyaziyyat elmləri doktoru, professor Misrəddin Sadıqov, riyaziyyat üzrə elmlər doktoru, professor Ramiz İsgəndərov, filologiya elmləri doktoru, professor, Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini Sayalı Sadıqova, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, Sosial və Pedaqoji Elmlər Akademiyasının akademiki Fərrux Rüstəmov öz elmi, pedaqoji və ictimai fəaliyyətləri ilə məktəbin nüfuzunu daim yüksək səviyyədə saxlamış, onun maarifçilik ənənələrinin qorunub inkişaf etdirilməsinə dəyərli töhfələr vermişlər.

Bundan əlavə, fəlsəfə doktoru elmi dərəcəsinə yüksəlmiş məzunlar - Ziyad Elləzov, Məmməd Kazımov, Tahir İbrahimov, İlham Mazanov, Asif Məmmədov, Xaliqverdi Sadıqov, Əli Cəfərov, Cavanşir Rəhimov, Azad Qurbanov, Mehdi Hüseynov, Mikayıl Abbasov, Əli Tağıyev, Kamal Adıgözəlov, Aygün Xəlilqızı, Şaiq Adıgözəlov, Simnar Mamedov və başqaları - eyni şəkildə öz elmi araşdırmaları və ictimai fəaliyyəti ilə məktəbin adını uca tutmuş, gənc nəsillər üçün nümunə olmuşlar.

Məktəbin məzunları arasında Azərbaycan Respublikasının dövlət idarəçiliyində mühüm vəzifələrdə, səhiyyə, sosial-iqtisadi, idarəetmə, mühəndislik və texnologiya, hüquq-mühafizə orqanları, ədliyyə sistemi və Fövqəladə Hallar Nazirliyində çalışmış tanınmış şəxslər vardır.

Cil kənd məktəbini qızıl medalla, Bakı Dövlət Universitetini isə fərqlənmə diplomu ilə bitirən, fəlsəfə doktoru elmi dərəcəsi üzrə dissertasiya müdafiəsi ərəfəsində olan 20 Yanvar şəhidi Yusif Allahverdi oğlu Sadıqov da bu məktəbin tanınmış məzunlarındandır.

### I və II Qarabağ müharibəsində iştirak edən məzunlar

1988-ci ilin noyabr ayında Cil kənd məktəbinin şagirdləri və bütövlükdə kənd sakinləri öz doğma yurdlarını tərk etməyə məcbur oldular. Erməni silahlı birləşmələrinin törətdiyi vəhşiliklərdən xilas olmaq üçün onlar noyabr və dekabrın sərt, şaxtalı günlərində ayaqyalın, başıaçıq, piyada yollarla Gədəbəydən keçərək Azərbaycana üz tutdular. Bu yol həm soyuğun, həm ağrının, həm də həsrətin yoluydu - lakin insanlar ümidlərini, Vətən sevgisini itirmədilər.

Doğma torpaqlarından didərgin düşən bu Vətən övladları Azərbaycana pənah gətirdikdən az sonra silaha sarılıb torpaqların müdafiəsinə qalxdılar. Müharibə alovunu söndürmək, işğal altında olan yurd yerlərini geri qaytarmaq, el-obanı yaşatmaq üçün igidlərimiz canlarını qurban verdilər. Onlar qanları ilə qara torpağı müqəddəsləşdirdilər, torpağı yenidən Vətən etdilər. Şəhidlik zirvəsinə ucalanlar sırasında Cil kənd məktəbinin igid məzunları - Allahverdi Həsənov, Adil Mədətov, Lətif Məhərrəmov, Qurban Əhmədov, "Azərbaycan bayrağı" ordenli Mehbalı Zeynalabdıyev, Rövşən Cəlilov, Vahid Mehdiyev, Vüqar Ələkbərov və Əli İsmayılov da var idi. Ərəstun Məhərrəm oğlu Vəliyev isə ağır döyüşlərin birində itkin düşərək Vətən yolunda qeybə çəkilən qəhrəmanlarımızdan oldu. Daşkəsən rayon, Quşçu kənd tam orta məktəbi Əli İsmayılovun, Göygöl rayonu, Şəhriyar kənd tam orta məktəbi Lətif Məhərrəmovun adını daşıyır. "Azərbaycan bayrağı" ordenli qəhrəman kəşfiyyatçı Mehbalı Zeynalabdıyevin yaşadığı binaya xatirə lövhəsi vurulub, adına Bakı şəhərində küçə verilib.

Birinci Qarabağ savaşından sonra keçən uzun illər ərzində şəhidlərin qisasının alınmaması millətin ruhuna, vüqarına ağır təsir göstərirdi. İşğal edilmiş şəhərlərin, kəndlərin, rayonların adları anım günlərində ürəkağrısı ilə xatırlanırdı. Millət 30 il dözdü, səbir etdi, ruhunu diri saxladı və Ali Baş Komandanın əmrini gözlədi. Nəhayət, 27 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Qarabağ Azərbaycandır!" çağırışı və "dəmir yumruq" birliyi xalqı bir amal, bir məqsəd, bir bayraq altında topladı. Otuz illik yurd həsrətinə son qoyuldu. Vətən uğrunda 3 minə yaxın igid övladımız şəhidlik zirvəsinə yüksəldi. Bu qəhrəmanlar öz şücaətləri ilə dünya hərb tarixinə yeni səhifələr yazdılar, türkün qüdrətini, yenilməzliyini, əzəmətini bütün dünyaya nümayiş etdirdilər.Bu qəhrəmanlıq salnaməsində Cil kəndinin övladları da öz layiqli yerini tutdu. Əhmədağa İsgəndərov, Kamil Rəhimli, Tural Məmmədov və Anar İsgəndərov xalqımızın yaddaşına əbədi qəhrəmanlar kimi həkk olundular. Cil kəndinin 100-dən çox məzunu Vətən müharibəsi iştirakçısı kimi adlarını Zəfər tarixinə yazdılar.

## Şuşadan Göyçəyə yollar görünür...

Hazırda Qarabağ Azərbaycanın incisinə çevrilir, Böyük Qayıdış təmin edilir. İnsanlarla bərabər Qarabağ torpağına onun tarixi gözəlliyi və mənəvi-psixoloji ruhu qayıdır. Şuşadan Göyçəyə yollar görünür...

İnanıram ki, rus əsgərlərinin, erməni daşnaklarının vahiməli və soyuq baxışları altında doğma el-obasını, isti yurd-yuvasını qarlı yollarla ayaqyalın, başıaçıq, ağlaya-ağlaya tərk edənlər yaxın illərdə sevinclə o yurda dönəcək, Vətən həsrətinə son qoyulacaq. Doğma Cil kəndinə yenə yaz gələcək, dağ-dərələr, düzlər yaşıl dona bürünəcək, göy çəmənləri çiçək açaq, bulaqların, su arxların başını yarpızlar bəzəyəcək, təbiətin "donu" yavaş-yavaş açılacaq. Min dərdin dəvası olan "Pəri bulağı"nda aşıqlar məclis quracaq, müqəddəs ziyarətgah olan "Qara daş"da qurbanlar kəsiləcək, uşaqların sevinc səsi bir-birinə qarışacaq. Gənclərimizin toy məclislərində "Vağzalı" sədaları kəndi "başına götürəcək", Cil kənd tam orta məktəbinin zəng səsi ilə yeni tikilmiş məscidin azan səsi bir-birinə qarışacaq, toylu-düyünlü günlərimiz başlayacaq.

Çaylarımız əvvəlki coşqu ilə axacaq, ocaqlarımız daha gur yanacaq, Cil kəndinin növrağı özünə qayıdacaq, yurd həsrətli yuxularımız çin olacaq, hər tərəf gülə-çiçəyə bürünəcək. Həyat yeni ritmlə davam edəcək...

**Fərrux RÜSTƏMOV,**
*ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri,*
*pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi*

# Azərbaycan dilinin saflığı və milli kimlik məsələsi

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda Prezident İlham Əliyevin çıxışı milli elmin, intellektual inkişafın və dövlət ideologiyasının kəsişməsində xüsusi əhəmiyyət daşıyan bir hadisə kimi dəyərləndirilə bilər. Bu çıxışda Prezidentin nitqi sadəcə yubiley təbriki deyil, həm də elmin, texnologiyanın və mədəni dəyərlərin qarşılıqlı münasibətini müəyyən edən strateji diskursdur. Dövlət başçısı elmin inkişafını iqtisadi və hərbi gücün əsası kimi təqdim etməklə yanaşı, bu inkişafın ideoloji dayağını ana dilinin saflığı ilə əlaqələndirir. Nitqin sonunda xüsusi vurğulanan dil məsələsi, əslində, bütün çıxışın mərkəzi semantik xəttini təşkil edir: elm və texnologiya maddi tərəqqinin, dil və kimlik isə mənəvi tərəqqinin təminatıdır. Prezident İlham Əliyevin çıxışı çoxsahəli mövzuları, elmi fondların yaradılması, rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik, bərpaolunan enerji və Qarabağda aparılan quruculuq işlərini əhatə etsə də, bu çoxqatlı sistemin mərkəzində bir ideya dayanır: “intellektual güc milli dəyərlərlə və dilin saflığı ilə tamamlanmalıdır”.






Nitqin dilə dair hissəsi Prezidentin həm siyasətçi, həm mədəniyyət daşıyıcısı, həm də ictimai dəyərlərin qoruyucusu mövqeyini nümayiş etdirir. Burada dil yalnız kommunikasiya vasitəsi deyil, həm də milli suverenliyin, kimliyin və ideoloji davamlılığın simvolu kimi təqdim olunur. Prezident İlham Əliyev də çıxışında Azərbaycan dilinin həm coğrafi miqyas, həm də semantik zənginlik baxımından unikal olduğunu vurğulayaraq qeyd edir ki, “Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir”.

Azərbaycan dövlətçiliyinin müasir mərhələsində elm və dil siyasəti bir-birini tamamlayan iki strateji istiqamət kimi formalaşmışdır. Prezident İlham Əliyevin nitqində bu paralellik açıq şəkildə görünür.

Dövlət başçısı AMEA-nın 80 illik fəaliyyətinə toxunaraq qeyd edir ki, Akademiya müxtəlif ictimai-siyasi sistemlərdə fəaliyyət göstərsə də, elmin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq qalır. Bu vurğu, əslində, Ulu Öndər Heydər Əliyevin elmə verdiyi önəmin davamıdır. Prezident xatırladır: “Sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə Akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı”.

Elmin maddi tərəqqisi üçün infrastruktur və fondlar yaradıldığı kimi, dilin mənəvi müstəvisində də mədəni sərhədlərin qorunması siyasəti formalaşdırılır. Bu baxımdan, Prezidentin “tükənməz sərvət intellektual potensialdır” fikri ilə “ana dili milli mənsubiyyətin əsas amilidir” fikri bir-birini tamamlayır.

Prezidentin çıxışında ən mühüm ideoloji məqam, birmənalı şəkildə, Azərbaycan dilinə həsr olunan hissədir. Yuxarıda qeyd etdiyimiz “Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir” fikri sadə strukturlu olsa da, məzmun baxımından çoxqatlıdır. Burada dil: mənsubiyyətin göstəricisi kimi; mədəni sərhədlərin qoruyucusu kimi və siyasi məsuliyyət sahəsi kimi çıxış edir.

Prezident “Azərbaycan dili çox zəngindir və xarici kəlmələrə ehtiyac yoxdur” deyərkən dilin yalnız estetik deyil, həm də mədəni müqavimət daşıyıcısı olduğunu vurğulayır. Bu fikir bir tərəfdən milli dilin öz potensialına inamını ifadə edir, digər tərəfdən isə qloballaşmanın gətirdiyi dil qarışıqlarına qarşı dövlət səviyyəsində ədəbi norma mövqeyi nümayiş etdirir.

Bununla Prezident dilin saflığının qorunmasını yalnız dilçi və ədəbiyyatşünasların işi kimi deyil, ümummilli məsələ kimi təqdim edir.

Prezident İlham Əliyevin nitqində Azərbaycan dilinin saflığı məsələsi yalnız linqvistik yox, həm də milli-mənəvi təhlükəsizlik kontekstində qoyulur. Dövlət başçısının dilimizin təmizliyi haqqında fikirləri sırf leksik təmizlənmə çağırışı deyil, daha geniş mənada mədəni müstəqilliyin qorunması ideyasıdır.

Son illərdə dilin daxili strukturuna, ədəbi norma sisteminə və üslubi sabitliyinə yad təsirlər artmışdır. Bu, xüsusilə media, sosial şəbəkə və gündəlik nitq səviyyəsində özünü göstərir. Prezident bildirir ki, “televiziyalarda, yazılı mediada və bəzi insanların çıxışlarında” kənar kəlmələrin çoxalması müşahidə olunur.

Ən diqqətçəkən hissə Prezidentin bu sözləridir: “Əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir”.

Bu fikir, əslində, Azərbaycan dil siyasətinin yeni mərhələsini müəyyən edir. Əgər əvvəlki illərdə dilin saflığı məsələsi əsasən ədəbi norma və qrammatik düzgünlük səviyyəsində müzakirə edilirdisə, indi o, milli təhlükəsizlik, informasiya müharibəsi və mədəni suverenlik səviyyəsinə qaldırılır.

Prezidentin nitqində dilin qorunması artıq bir müdafiə strategiyası kimi səslənir: xarici leksik təzyiqlər, moda ifadələr, sosial media jarqonu kimi elementlər tədricən “mədəni asılılıq mexanizmi”nə çevrilə bilər. Bu səbəbdən dövlət başçısı açıq şəkildə bildirir ki, dilin saflığı yalnız dilçilərin deyil, bütün cəmiyyətin məsuliyyətidir.

Dilin qorunması prosesinin formalaşması üçün Prezident dörd səviyyəli məsuliyyət modeli müəyyən edir: dövlət səviyyəsi: qanunvericilik, təhsil və media siyasətində ədəbi dilin qorunması; elmi səviyyə: dilçi alimlərin, terminoloqların, lüğət redaksiyalarının rolu; mədəni səviyyə: yazıçı, şair, jurnalist və sənətkarların ədəbi nümunələri vasitəsilə dilin estetik gücünü qoruması; fərdi səviyyə: hər bir vətəndaşın gündəlik nitqdə ana dilinə məsuliyyətli yanaşması.

Beləliklə, Prezidentin çıxışı dilin saflığını həm mədəni müqavimət, həm də dövlətçilik prinsipi kimi formalaşdırır. Dövlət başçısının “biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, milli kimliyimiz də sarsıla bilər” ifadəsi bu ideyanın məntiqi yekunudur.

Prezidentin çıxışında xüsusi vurğu alan məsələlərdən biri də xaricdə yaşayan azərbaycanlıların dil vəziyyətidir. Qeyd edilir ki, bəzi ölkələrdə ədəbi Azərbaycan dili “məişət dili” formasında işlədilir. Bu, sadəcə linqvistik müşahidə deyil, diaspor kimliyinin gələcəyi ilə bağlı xəbərdarlıqdır.

“Məişət dili” anlayışı nitqdə ikiqat semantik yük daşıyır. Bir tərəfdən bu, dilin funksional məhdudlaşmasıdır, yəni dil yalnız evdaxili ünsiyyət səviyyəsində qalır, ictimai, elmi və mədəni sahələrdən çəkilir. Digər tərəfdən isə bu ifadə statusun enməsi anlamındadır: dilin sosial nüfuzu zəifləyir, mədəni kapital rolu azalır.

Bu hal milli təhlükə kimi səslənir, çünki dilin ictimai məkanlardan sıxışdırılması uzunmüddətli perspektivdə assimilyasiya prosesini sürətləndirir. Yəni, dilin itirilməsi təkcə danışıq vərdişinin yox, mənsubiyyət hissinin itirilməsinə gətirib çıxarır.

Bu baxımdan Prezidentin “ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti” fikri həm daxili, həm də xarici azərbaycanlıları əhatə edən milli himayə konsepsiyası kimi çıxış edir.

Dövlət başçısı İlham Əliyevin dilə yanaşması Azərbaycan diaspor siyasətinin mərkəzi elementlərindən biri kimi səslənir. Çünki 50 milyondan çox azərbaycanlının yaşadığı coğrafiyada dil ümumi mənəvi bağ rolunu oynayır.

Bu baxımdan, Prezidentin çıxışında üç mühüm istiqamət diqqət cəlb edir:

1. Dil vasitəsilə milli birliyə çağırış - “bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilməməlidir”;
2. Diasporun mədəni inteqrasiyası - xaricdəki icmaların Azərbaycan mədəniyyətini ana dilində təbliğ etməsi;
3. Ədəbi dilin statusunun yüksəldilməsi - tədris, media və tərcümə proqramları vasitəsilə dilin canlı istifadəsinin təmin olunması.

Bu istiqamətlər Prezidentin dil siyasətinin həm praktik, həm də ideoloji səviyyəsini göstərir. Dilin qorunması artıq təkcə ədəbi məsələ deyil, geosiyasi və identitar məsələdir.

Prezidentin “bəzi yerlərdə bizim ədəbi dilimiz itirilir, daha çox məişət dili kimi istifadə olunur” fikri, əslində, dilin kollektiv yaddaş daşıyıcısı kimi dərk edilməsinə əsaslanır. Ədəbi dil sadəcə qaydalar sistemi deyil, o, millətin mədəni kodudur, tarixi təcrübəsinin simvoludur. Ədəbi dil itdikdə nəsillər arasında mənəvi yaddaş körpüsü də qırılır. Bu məntiqdə “məişət dili” sadəcə ünsiyyət forması deyil, məhdudlaşdırılmış kimlik deməkdir. Prezident bu problemi qeyd etməklə həm alimlərə, həm pedaqoqlara, həm də diaspor təşkilatlarına yönəlik bir çağırış irəli sürür. Ana dilinin ədəbi forması qorunmadıqda, millət özünüdərketmə gücünü itirir.

Prezident İlham Əliyevin nitqində Azərbaycan dilinin qorunması məsələsi fərdi təşəbbüsdən kənara çıxaraq kollektiv məsuliyyət sistemi kimi təqdim olunur. O, məsuliyyətin ünvanını çoxsəviyyəli şəkildə müəyyən edir və dilin saflığını qorumaq üçün dövlət, alimlər və ictimaiyyət arasında funksional əməkdaşlıq zərurətini vurğulayır.

Bu fikri dövlət başçısı belə sistemləşdirir: “Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər”.

Prezident xatırladır ki, 80 illik Akademiyanın missiyası təkcə elmi tədqiqat aparmaq deyil, həm də dil və mədəniyyətin qoruyuculuğunu həyata keçirməkdir. Dövlət başçısı elmin praktiki nəticələr verməsinin vacibliyini belə ifadə edir: “Bu gün bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda da dövlət strukturları alimlərlə daha sıx işləməlidirlər”.

Bu fikir birbaşa dil elminə də şamil edilir. Deməli, dilçilik tədqiqatları yalnız nəzəri müstəvidə qalmalı deyil, ictimai şüurda dil mədəniyyətini formalaşdırmalı, ədəbi normaların təbliğinə yönəlməlidir.

Prezidentin nitqində ən önəmli sintez budur: elmi tərəqqi, texnoloji inkişaf və milli dil bir-birindən asılı proseslərdir. Elm və texnologiya dilin inkişafına yeni vasitələr gətirməli, dil isə bu tərəqqinin mənəvi və ideoloji daşıyıcısı olmalıdır. Bu qarşılıqlı əlaqə “intellektual müstəqillik” anlayışının mərkəzində dayanır.

Prezidentin “Azərbaycan dilinin saflığının qorunması hər bir vətəndaşın işi olmalıdır” çağırışı, əslində, dövlət ideologiyasının mədəni əsaslarını formalaşdırır. Bu fikir həm akademik, həm pedaqoji, həm də ictimai sferada dilə müqəddəs dəyər statusu verir.

Dövlət başçısı İlham Əliyevin çıxışında dil məsələsi elmi strategiyanın, dövlət siyasətinin və mənəvi dirçəlişin kəsişdiyi nöqtədə dayanır. Azərbaycan dilinin saflığı bu gün yalnız keçmişin mirası deyil, gələcəyin təminatıdır. Dil milli yaddaşın kodu, milli düşüncənin aləti və milli ideologiyanın ifadə formasıdır. Bu mənada Prezidentin nitqi həm dövlətin, həm elmin, həm də xalqın birgə vəzifəsini müəyyənləşdirir: Dili qorumaq - dövləti qorumaq, dili yaşatmaq - milləti yaşatmaqdır.

**Könül SƏMƏDOVA,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor*

## *İntiqam CƏBRAYILOV – 65*

İnsanı ucaldan, şöhrətləndirən onun xoş əməlləri, təhsildə, iş yerində, cəmiyyətdə üzərinə düşən vəzifələri cani-dildən yerinə yetirməsi, vətənpərvərliyi, xeyirxahlığıdır. Öz həyat-tərzləri və fəaliyyətləri ilə müsbət mənada fərqlənənlər cəmiyyət tərəfindən bəyənilir, ailə tərəfindən sevilir. Əxlaqı gözəl olanlar, adətən diqqət mərkəzinə gətirdiyimiz məziyyətlərə sahiblənirlər. Həzrəti Məhəmməd peyğəmbərin hədislərinin birində deyilir ki, əxlaqı gözəl olanları fərqləndirin. Əxlaqı gözəl olanlardan biri də İntiqam Hilal oğlu Cəbrayılovdur. İntiqam müəllim kimdir? Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim, Turan Elmlər Akademiyasının həqiqi üzvü, akademik.

# Mühüm problemlərin araşdırıcısı

İ.Cəbrayılov Neftçala rayonunun Qırmızıkənd kəndində dünyaya gəlmiş, kənddəki məktəbdə təhsil aldıqdan sonra, sənədlərini Azərbaycan Dövlət Pedaqoji Universitetinə vermiş, tarix-hüquq-ictimaiyyat fakültəsinə qəbul edilmişdi. Ali təhsilini başa vurduqdan sonra doğma kəndinə qayıtmış, qonşu Xolqaraqaşlı kənd məktəbində işə başlamışdır. Pedaqoji aləmdəki yeniliklərdən bəhrələnən, müəllim-şagird münasibətlərini səmərəli quran, dərslərində nəzəri və metodik hazırlıq nümayiş etdirən, məktəblilərlə Azərbaycan tarixi üzrə sinifdənxaric tədbirləri yüksək səviyyədə təşkil edən İntiqam müəllim təhsilalanlarda həm təlim prosesinə, həm də təlimdən sonrakı məşğələlərə, tədbirlərə maraq oyadır, onların sevimlisinə çevrilirdi. Rayonda qabaqcıl, təcrübəli və novator müəllimlərdən söz düşəndə İntiqam müəllimin də adı birincilər sırasında çəkilirdi.

İntiqam müəllim yaradıcı şəxs idi, daim axtarışdaydı. “Azərbaycan müəllimi” qəzeti, “Azərbaycan məktəbi” jurnalı əlindən düşməzdi. Azərbaycan tarixinə, ümumi tarixə, xarici ölkələr tarixinə dair materiallar toplayır, onları sistemləşdirir, öyrənir, zəruri məlumatları dərslərdə, sinifdənxaric tədbirlərdə şagirdlərə çatdırırdı.

İntiqam müəllimdə tədqiqatçılığa maraq və meyil getdikcə güclənirdi. Bu maraq və meyil onu Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna (hazırda Təhsil İnstitutu) gətirib çıxardı. Pedaqogika nəzəriyyəsi və tarixi (hazırda ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi) ixtisası üzrə əyani aspiranturaya qəbul edildi. Yuxusuz gecələri, narahat gündüzləri başladı.

Dissertasiya mövzusu “Tarixi abidələr şagirdlərdə milli mənlik şüuru formalaşdırmağın vasitəsi kimi” müəyyənləşdirildi. Mən də ona elmi rəhbər təyin edildim.

Mən təxminən 40 nəfərə qədər elmlər doktoru və fəlsəfə doktoru yetişdirmişəm. Elmi məsləhətçiliyim və elmi rəhbərliyimlə onlarla şəxs müdafiə edib elmi dərəcə almışdır. Bu qırx nəfərin içərisində pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim İntiqam Cəbrayılov öz dəst-xətti, çalışqanlığı, elmi-pedaqoji fəaliyyəti ilə seçilir. Özü də bir neçə fəlsəfə doktoru və iki nəfər elmlər doktoru yetişdirmişdir.

İntiqam Cəbrayılov 1994-cü ildə dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, pedaqoji elmlər namizədi (hazırda pedaqogika üzrə fəlsəfə doktoru) elmi dərəcəsi aldı.

O, yaxşı tarix müəllimi və səriştəli tədqiqatçı kimi özünü təsdiq edib. İnstitutda çalışa-çalışa ali təhsil müəssisələrində (Bakı Qızlar Universitetində, Azərbaycan Dillər Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində) ümumi tarixdən, Azərbaycan tarixindən mühazirələr oxuyur, seminar məşğələləri keçirir.

İntiqam müəllim mənim müdir olduğum Ali və orta ixtisas təhsilinin nəzəri problemləri şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışmağa başladı (2001-2008-ci illər). Həm də



elmlər doktoru proqramı üzrə şöbənin doktorantı oldu. Bu dəfə dissertasiya mövzusu tarixin tədrisi metodikasına aid idi: “Pedaqoji təmayüllü ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəri və praktik problemləri”.

Doktorluq dissertasiyası yazmaq son dərəcə böyük məsuliyyət tələb edir. Ona görə də ciddi araşdırmalara başladı. Tədqiq etdiyi problemin həm nəzəri, həm də təcrübi məsələlərini əks etdirməyə çalışdı, çoxsaylı elmi ədəbiyyatı, tarix dərsliklərini nəzərdən keçirib qeydlər götürdü, tədqiq etdiyi problemlə bağlı ali məktəblərdə mühazirə və seminar məşğələlərini müşahidə etdi, eksperiment qoydu, elmi fərziyyəsinin doğruluğunu yoxlamağa başladı.

Nəhayət, 2007-ci ildə doktorluq dissertasiyasını müdafiə etdi. Tarixin tədrisi metodikası ixtisası üzrə elmlər doktoru oldu. Qeyd etmək lazımdır ki, bu ixtisas üzrə respublikamızda cəmi 2 elmlər doktoru var. Biri Mübariz Əmirov, ikincisi İntiqam Cəbrayılov.

İllər ötüb keçdi. İntiqam müəllim xoş xatirələr yaşadaraq, uğurlarının sayını artıraraq!

İntiqam müəllimin tədqiqatları mühüm problemlərin araşdırılmasına həsr olunub. Fikir verək: Heydər Əliyev irsində Azərbaycan tarixinin tədqiqi və tədrisi məsələləri; təhsilimizin inkişafında Heydər Əliyev mərhələsi; Azərbaycanın dövlətçilik tarixinin tədrisi problemləri; Azərbaycan tarixi fənni üzrə təhsil standartlarının hazırlanması; milli mənlik şüurunun formalaşdırılması; tarix ixtisası üzrə müəllim kadrların hazırlığı məsələləri; Azərbaycan tarixinin tədrisi keyfiyyətini yüksəltməyin şərtləri; Azərbaycanın yeni və ən yeni dövr tarixinin tədqiqi və tədrisi məsələləri; Azərbaycan tarixşünaslığı və vətən tarixinin tədrisi məsələləri; ali məktəblərdə Azərbaycan tarixi təliminin müasir problemləri; tarixin tədrisində diyarşünaslıq materiallarından faydalanma; tarixin tədrisində islam dəyərlərindən istifadə; tarixi təfəkkürün metodoloji xüsusiyyətləri; tarix fənninin təlim strategiyaları, şəxsiyyətyönlü təhsil və şəxsiyyətin formalaşdırılması və s.

Professor İntiqam Cəbrayılov Azərbaycan Respublikasının Təhsil İnstitutunda Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiridir. Şöbə əməkdaşlarının elmi-tədqiqat yaradıcılığı yalnız institut üçün deyil, həm də təhsil sahəsindən ötrü əhəmiyyətlidir.

İntiqam Cəbrayılov elmi-tədqiqatla məşğuldur, doktorant və dissertantlara elmi rəhbərlik edir, dissertasiyaların müdafiəsi zamanı tez-tez rəsmi opponent olur.

O vaxtilə respublikada pedaqoji və psixoloji tədqiqatları əlaqələndirən Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın sədri vəzifəsini daşımış (2014-2019); bir müddət ARTPİ-də fəaliyyət göstərən dissertasiya şurasının elmi katibi, sonrakı illərdə dissertasiya şurasının nəzdindəki elmi seminarın elmi katibi, eyni zamanda Təhsil Nazirliyinin elmi-metodik şurasının pedaqogika və psixologiya bölməsinin elmi katibi, “Azərbaycan məktəbi” jurnalının məsul katibi (2000); BDU-nun və ADPU-nun nəzdində müxtəlif vaxtlarda yaradılmış birdəfəlik dissertasiya şuralarının üzvü; Azərbaycan tarixi və ümumi tarix fənləri standartlarını hazırlayarkən milli məsləhətçi və işçi qrupunun sədri olmuşdur.

Bundan başqa, şagirdlər arasında Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş “Ən yaxşı təqdimat” respublika müsabiqəsində münsiflər heyətinin üzvü; respublika təhsil işçilərinin sentyabr konfranslarında Təhsil Nazirliyinin nümayəndəsi kimi iştirak etmiş, bir neçə il tələbələrin respublika konfransında tarix bölməsi üzrə ekspert komissiyasının üzvü olmuşdur. O, tarix fənni üzrə respublika fənn olimpiadasında komissiya üzvü, “İlin müəllimi” müsabiqəsində ekspert olmuşdur.

İntiqam müəllimin zəngin elmi yaradıcılığı vardır. 3 dərs vəsaitinin, 10 monoqrafiya və kitabın, 8 metodik vəsaitin, 48 fənn proqramının, 8 metodik tövsiyənin və 119 elmi məqalənin, 80-a yaxın konfrans materialının və topluda məqalənin müəllifidir.

Professor İntiqam Cəbrayılovun son 5 ildə 60-dan çox əsəri (monoqrafiya metodik vəsait, metodik tövsiyə, məqalə, tezis) çap edilib.

“Azərbaycan tarixinin tədrisi metodikası”, “Pedaqoji təmayüllü ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəri və praktik problemləri”, “Şəxsiyyətyönlü təhsil və vətəndaş cəmiyyəti”, “Müasir təhsil: axtarışlar və perspektivlər”, “Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri” (həmmüəlliflərlə), “Müasir təhsilə innovativ yanaşmalar” (həmmüəlliflərlə), “Müstəqillik dövründə Azərbaycan təhsili: nəzəri və praktik aspektlər” (həmmüəlliflərlə), “Təhsilin təşkilinə müasir pedaqoji yanaşmalar” monoqrafiyalarını; “Azərbaycan tarixi: Ali məktəblər üçün mühazirə mətnləri”, “Əqli mülkiyyət mədəniyyətinin nəzəri və pedaqoji əsasları: magistrantlar üçün (K.V.Mikayılova ilə), “Azərbaycan tarixi: Abituriyentlər üçün dərs vəsaiti” (T.M. Məmmədovla) dərs vəsaitlərini nümunə göstərmək mümkündür.

Son kitabları: “Ehtiyat dərsliklərin hazırlanmasının ümumpedaqoji məsələləri” (həmmüəlliflə) (2023), “Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili (həmmüəlliflə) (2023), “Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları” (həmmüəlliflə) (2023), “Şuşada məktəb və pedaqoji fikir (“həmmüəlliflə) (2024).

İntiqam müəllim yaxşı ailə başçısıdır. İki övladı, iki nəvəsi vardır. Biz professor İntiqam Hilal oğlu Cəbrayılovun həyatının və elmi-pedaqoji fəaliyyətinin bəzi məqamlarına diqqət yetirdik. Mən elm sahəsində yetirməm olan İntiqam müəllimlə fəxr edirəm. O, mənim ümidlərimi doğrultmuş, pedaqoji elmin zirvəsinə qalxmışdır. Mən yetirməm pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim, “Qabaqcıl təhsil işçisi” döş nişanlı İntiqam Hilal oğlu Cəbrayılovun 65 illik yubileyini salamlayır və üzümü ona tutaraq deyirəm: 65 yaşın mübarək, İntiqam müəllim!!!

**Akif ABBASOV,**
*Təhsil İnstitutunun elmi katibi,pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

## ştatda vakant olan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedralar üzrə professor**

Dil və ədəbiyyat (Ədəbiyyat üzrə) - 1 yer

**Kafedralar üzrə dosent**

Mühasibat və iqtisadiyyat kafedrası (İqtisadiyyat üzrə) - 1 yer
Biznesin idarə edilməsi - 1 yer
Dil və ədəbiyyat (Ədəbiyyat üzrə) - 1 yer
Pedaqogika və psixologiya (Psixologiya üzrə 2 yer, pedaqogika üzrə1 yer) - 3 yer
Biologiya - 2 yer
Energetika - 2 yer

**Kafedralar üzrə baş müəllim**

Mühasibat və iqtisadiyyat kafedrası (Mühasibatlıq üzrə) - 2 yer
Biznesin idarə edilməsi - 1 yer
Azərbaycan və Şərqi Avropa xalqları tarixi - 2 yer
Tarix, coğrafiya və metodika (Tarix üzrə) - 1 yer
Fəlsəfə, sosiologiya və politologiya - 4 yer
Dil və ədəbiyyat (Dilçilik üzrə) - 2 yer
Pedaqogika və psixologiya - 3 yer
Xarici dillər - 3 yer
Riyaziyyat və informatikanın tədrisi texnologiyası (Riyaziyyat üzrə 2 yer, informatika üzrə 2 yer) - 4 yer
Riyazi analiz və diferensial tənliklər - 2 yer
Kimya - 3 yer
Mülki müdafiə, tibbi və fiziki hazırlıq - 1 yer
Energetika - 1 yer
Avtomatika və mexanika - 2 yer
İnformasiya texnologiyaları - 3 yer
Kimya mühəndisliyi və ekologiya (Kimya mühəndisliyi üzrə) -1 yer

**Kafedralar üzrə müəllim**

Azərbaycan və Şərqi Avropa xalqları tarixi - 1 yer
Avtomatika və mexanika - 1 yer

**Qeyd:** Sənədlər, elan dərc olunan gündən bir ay (30 gün) müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər.

**Ünvan:** Az 5008 Sumqayıt, 43-cü məhəllə, SDU otaq 233, Telefon: (018) 642-15-06. Əlavə: 1-16 Rektorluq
**www.sdu.edu.az, email: info@sdu.edu.az**

**REKTORLUQ**

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filiflı

## vakant müəllim vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

1. Psixologiya müəllimi
2. Riyaziyyat müəllimi

**Tələblər:**

- Elmi ad və elmi dərəcə;
- Ali-magistr elmi ixtisas dərəcəsi;
- Kompüterdən istifadə bacarığı.

**Tələb olunan sənədlər:**

- *Şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- *Diplom və diploma əlavələrin surəti.*

**Son müraciət tarixi:** 18.01.2026-cı il.

**Ünvan:** Ağcabədi şəhəri, Ü.Hacıbəyli prospekti, 210
**Email:** adpu.agcabedi.filiali@adpu.edu.az

**DİREKTORLUQ**

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

## aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə

## ELAN EDİR:

*Dram rejissoru və səhnə plastikası kafedrası üzrə - kafedra müdiri - 1 yer*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəh., AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**


# “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003
**Tiraj:** 37990 **Sifariş:** 2573
**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Bakı şəhər** Xətai rayonu 136 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Nərimanov Nicat Akif oğluna verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Mənsimov Süleyman Abdin oğluna verilmiş A-118444 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Yeyənkənd kənd tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Həmidova Arasta Rakif qızına verilmiş E-731958 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Çardaxlı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Şahverdiyeva Mehriban Ruhulla qızına verilmiş A-302939 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Rəhimov Vüqar Əfrəddin oğluna verilmiş A-841052 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 7 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Baxışova Aybəniz Sahib qızına verilmiş A-198248 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Əxşam kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2001-ci ildə bitirmiş İbrahimova (Allahverdiyeva) Aytac Qüddəsər qızına verilmiş B-408493 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Çahar kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Qasımov Murad Elman oğluna verilmiş A-986115 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 270 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Üseynzadə Heybət Bəşir oğluna verilmiş E-014585 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2024-cü ildə Şükürov Xəzər Xəqani oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Süleymanlı Maral Təvəkkül qızına verilmiş A-046229 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Göytəpə şəhər 1 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Abdinova (Yusubova) Fəridə Vahid qızına verilmiş 865152 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Zəhmətabad kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Sovzaliyeva (Əliyeva) Şəfa Fikrət qızına verilmiş 680557 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 8 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Salmanova Aminə Rəsul qızına verilmiş A-048888 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 2 nömrəli məktəb-liseyi 2000-ci ildə bitirmiş Rzayev Ramil Xasay oğluna verilmiş B-484328 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 2 nömrəli məktəb-liseyi 1996-cı ildə bitirmiş Rzayeva Samirə Xasay qızına verilmiş B-088235 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Muxtarov Təngiz Teyyub oğluna verilmiş A-360398 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Şirəliyeva Şahnaz Şirzad qızına verilmiş A-039370 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Maliyyə İqtisad Kolleci** tərəfindən 2003-cü ildə Nərimanova (Məstəliyeva) Könül Ənvər qızına verilmiş BB-II-105407 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin** (keçmiş Dövlət Dəmir Yolu Liseyi) tərəfindən 2010-cu ildə Bağırov Kamran Çingiz oğluna verilmiş BB-053298 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Sərxan Fəxrəddin oğluna verilmiş A-652500 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2012-ci ildə Cavadova Aysel Böyükkişi qızına verilmiş BB-I-019736 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 63 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədova Selcan Şahmərdan qızına verilmiş A-022050 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Avrasiya Universiteti** tərəfindən 2021-ci ildə Quliyev Teymur Sənan oğluna verilmiş C-122172 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Parakənd kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Maliyeva Gülüş Səfərəli qızına verilmiş A-073467 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Məmmədrzalı kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Soltanova Aygün Mirmalik qızına verilmiş 14 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Cəfərov Elman Lətif oğluna verilmiş E-258411 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Ağayev Hacımurad Şamil oğluna verilmiş E-565642 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2018-ci ildə Məhərrəmova Nərmin Elsevər qızına verilmiş AT-004611 nömrəli bakalavr diplomu, diploma əlavə və AR-003007 nömrəli rezidentura diplomu itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Qara Nuru kənd tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Abuşov Elxan Əflan oğluna verilmiş A-880521 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2006-cı ildə Məmmədov Cahangir Vaqif oğluna verilmiş B-071075 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 2 nömrəli tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Əliyeva (Qədimova) Aygün Haybulla qızına verilmiş A-630758 nömrəli əsas təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Səlimova Nurlana Rövşən qızına verilmiş E-225621 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Əzizova Əfsanə Müsabir qızına verilmiş B-202727 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Səlimli Kənan Kamran oğluna verilmiş A-063995 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2013-cü ildə Ağakişiyev Raul Qanboy oğluna verilmiş A-018720 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Alakol kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Musayeva Fəxriyyə Zakir qızına verilmiş A-039772 nömrəli ümumi orta təhsil haqqında attestat və 2006-cı ildə verilmiş B-351321 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2020-ci ildə Həsənli Nərgiz Ehtiram qızına verilmiş C-059855 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2015-ci ildə Həsənli Nərgiz Ehtiram qızına verilmiş AA-060621 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Qobu qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Osmanlı Yusif Əhməd oğluna verilmiş F-089717 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şiyəkəran kənd 1 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Məmmədova Fərqanə Mirzağa qızına verilmiş AK-228890 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbin nəzdindəki qiyabi qrupu 2019-cu ildə bitirmiş Cəfərov Ağadadaş Elman oğluna verilmiş E-195822 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Şıxbağı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Xəlilova (Namazova) Fidan Xalid qızına verilmiş A-181264 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 1986-cı ildə bitirmiş Əlibəyov Bayram Carulla oğluna verilmiş A-153757 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Muxax kənd 1 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Ömərov Vaqif Sabir oğluna verilmiş 540959 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Sarıcalar kənd tam ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Əsgərova (Ağayeva) Əfsanə Abbasəli qızına verilmiş 635739 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2024-cü ildə Mamoşova Leyla Qoşqar qızına verilmiş C-237743 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir 115 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1986-cı ildə Mirzəyev Rəfayıl Rəhim oğluna verilmiş A-611709 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2023-cü ildə Həsənova Gülxanım İlyas qızına verilmiş C-181476 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti** tərəfindən 1995-ci ildə İsgəndərov Rövşən Sayılxan oğluna verilmiş AB-I-026776 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş İsbatov İnam İsfanyar oğluna verilmiş A-717448 nömrəli ümumi orta təhsil haqqında attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** Aşağı Tala kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Padarova Aytən Cuma qızına verilmiş B-119057 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar Peşə Liseyi** tərəfindən 2005-ci ildə Həbiyev Elçin Allahverdi oğluna verilmiş BB-013557 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər Cəyir kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Abbasova Emilya Zirəddin qızına verilmiş A-196631 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Umudova Gülay Samir qızına verilmiş C-982368 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** nəzdində Bakı Texniki Kollec tərəfindən 2025-ci ildə Nağıyev Ayxan Ramal oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Sərxanlı kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Abbasov Vüsal Bəxtiyar oğluna verilmiş 170411 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Aşağı Daşarx kənd tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş İsmayılova (Şıxəliyeva) Gülnaz Həso qızına verilmiş 621231 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Tahirova Samirə İbrət qızına verilmiş A-293727 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əskərov Elnur Zahid oğluna verilmiş A-097761 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli tam orta məktəb-liseyin IX sinfini 2025-ci ildə bitirmiş Sayılzadə Ergün Namiq oğluna verilmiş F-037088 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.